

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 dekabr 2025-ci il, cümə
№ 232 (7059)
Qiyməti 60 qəpik


# Strateji baxış və dinamik tərəfdaşlıq

## Azərbaycan - BƏƏ əlaqələri Qlobal Cənubun inkişafına mühüm töhfələr vəd edir



Bax səh. 2

## Ədalət və mərhəmətin vəhdəti...

Bax səh. 5



## MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 74-cü iclası keçirilib

Bax səh. 4

## "Ulu Öndər Heydər Əliyev yolunun Müzəffər davamçısı"



Bax səh. 3

## Xəzərdə yeni neft anlaşması

Bax səh. 4

### Hərbi sahədə əməkdaşlıq güclənir

### Qarşılıqlı etimad əsasında...

### Kriptovalyuta ilə bağlı sənəd hazırlanır

### Trampın "Amerika birinci" düsturu...

## Təsdiqləndi

### Avropa Rusiya qazından imtina edir



Bax səh. 6



## Avropada strateji təhlükəsizlik: Almaniyanın hərbi gücünün yüksəlişi fonunda

Bax səh. 6

# Strateji baxış və dinamik tərəfdaşlıq

## Azərbaycan - BƏƏ əlaqələri Qlobal Cənubun inkişafına mühüm töhfələr vəd edir

Azərbaycanın həyata keçirdiyi ardıcıl və praqmatik xarici siyasət kursu ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə, etibarlı tərəfdaş kimi qəbul olunmasına geniş imkanlar yaradıb. Milli maraqlara söykənən, balanslaşdırılmış və çoxşaxəli xarici siyasət Azərbaycanın həm regional, həm də qlobal miqyasda təsir imkanlarını artırır. Xüsusilə formalaşmaqda olan yeni dünya nizamında Qlobal Cənub ölkələri ilə münasibətlərin dərinləşdirilməsi Bakının xarici siyasət prioritetlərində mühüm yer tutur. Azərbaycan bu platformada yalnız iqtisadi maraqlarını deyil, həm də ədalətli beynəlxalq münasibətlər, qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərini fəal şəkildə təşviq edir.

Qlobal Cənubun aparıcı dövlətləri ilə qurulan tərəfdaşlıq modeli Azərbaycanın müstəqil siyasət yürütmək əzminin, geosiyasi proseslərdə öz sözünü demək potensialının göstəricisidir. Bu kontekstdə Yaxın Şərq regionunun mühüm aktorlarından biri olan Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər xüsusi diqqət çəkir. Son dövrlərdə Azərbaycan-BƏƏ əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq sürətli inkişaf dinamikası nümayiş etdirir. Yüksək səviyyəli qarşılıqlı səfərlər, imzalanan strateji sənədlər və genişlənən iqtisadi-investisiya əməkdaşlığı bu münasibətlərin möhkəm siyasi təməl üzərində qurulduğunu təsdiqləyir. Energetika, bərpaolunan enerji, logistika, kənd təsərrüfatı, maliyyə və yüksək texnologiyalar sahələrində birgə layihələr iki ölkə arasında əməkdaşlığın real məzmununu daha da zənginləşdirir. Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi bərpa və yenidənqurma proseslərinə BƏƏ şirkətlərinin maraq göstərməsi də tərəfdaşlığın strateji xarakter daşıdığını göstərir. Beləliklə, Azərbaycan - BƏƏ münasibətləri Qlobal Cənub çərçivəsində formalaşan yeni əməkdaşlıq modelinin uğurlu nümunəsi kimi çıxış edərək, Bakının qlobal siyasətdə artan rolunu bir daha ön plana çıxarır.

Qeyd edək ki, BƏƏ Azərbaycanın müstəqilliyini 1992-ci ildə əsası qoyulan diplomatik əlaqələrin inkişafı, iki ölkə arasında münasibətlərin dostluq zəminində yüksək trayektoriya qazanması 1993-cü ildən, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonraya təsadüf edir. Qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələri hər zaman yüksək səviyyəsi, dialoq mühitində inkişaf tempi ilə diqqət çəkib. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı əlaqələr çoxşaxəli və dinamikdir. Siyasi dialoqun qurulması enerji və iqtisadi əlaqələrin də inkişafına mühüm təsirlər göstərib.





### Qarşılıqlı siyasi dialoq, dostluq münasibətləri, inam və etimad...

Azərbaycan Respublikası Birləşmiş Ərəb Əmirlikləri ilə sürətlə inkişaf edən strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir. Son illərdə ikitərəfli əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəlib, dövlət başçıları arasında mövcud münasibətlər bütün sahələrdə əməkdaşlığın inkişafına təkan verir. Qarşılıqlı səfərlər isə əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir, iqtisadi, siyasi və humanitar əməkdaşlıq üçün geniş imkanlar yaradır. Xatırladaq ki, Prezident İlham Əliyev indiyədək Birləşmiş Ərəb Əmirliklərinə 6 dəfə, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan isə Azərbaycana 3 dəfə səfər edib. Bu səfərlər iki ölkə arasında strateji dialoqun və qarşılıqlı etimadın möhkəmlənməsində mühüm rol oynayıb. Səfərlər zamanı imzalanan sənədlər və razılaşmalar əməkdaşlığın strukturunu və gələcək hədəflərini dəqiqləşdirir. Belə ki, 2024-cü ilin yanvarında BƏƏ Prezidentinin Azərbaycana ilk rəsmi səfəri zamanı "Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb, 2025-ci ilin sentyabrında isə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" qüvvəyə minib. Bu sənədlər Azərbaycan və BƏƏ arasında ikitərəfli münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldıraraq strateji tərəfdaşlığın bütün sahələrdə möhkəmlənməsinə xidmət edir. Xüsusilə siyasət, iqtisadiyyat, ticarət, enerji və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsini təmin edir, qarşılıqlı faydalı layihələrin daha səmərəli və davamlı şəkildə həyata keçirilməsi üçün möhkəmməl hüquqi və institusional zəmin yaradır. Hərtərəfli Strateji Tərəfdaşlıq Bəyannaməsi iki ölkə arasında etimadın artırılmasına, qarşılıqlı dialoqun intensivləşdirilməsinə və uzunmüddətli əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsinə imkan verir.

Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə səfəri həm də 2025-ci il iyulun 9-da imzalanmış "Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin həyata keçirilməsini sürətləndirir. Bu saziş ticarət həcmlərinin artırılması, investisiya axınlarının şaxələndirilməsi, innovasiya və yaşıl texnologiyalar sahələrində əməkdaşlığın genişləndirilir. Eyni zamanda, biznes dairələri arasında əlaqələrin möhkəmlənməsinə dəstək olur və ikitərəfli iqtisadi münasibətlərin dərinləşməsini təmin edir.

### Hərtərəfli strateji tərəfdaşlıq...

Ümumilikdə, bugünədək Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi, iqtisadi, enerji, humanitar və mədəni sahələri əhatə edən 50-dən çox ikitərəfli sənəd imzalanıb ki, bu da münasibətlərin institusional əsaslar üzərində inkişaf etdiyini göstərir. Parlamentlərarası əlaqələr də dinamik xarakter daşıyır və qarşılıqlı siyasi dialoqun mühüm tərkib hissəsi kimi çıxış edir. Bu ilin sentyabrında BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana səfəri zamanı 14 sənədin imzalanması tərəflərin dostluq münasibətlərinin göstəricisidir. İlk növbədə, "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə"nin əhəmiyyətini qeyd etmək lazımdır. Bəyannamədə iki dövlət arasındakı iqtisadi və siyasi münasibətlərin inkişaf etdirilməsinin zəruriliyi vurğulanır və inkişafın tərəflər üçün faydalı olduğu nəzərə çatdırılır. Bəyannamədə ölkələrimiz arasında bütün sahələr üzrə əməkdaşlığın davam edəcəyi öz əksini tapıb. "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" daha geniş əməkdaşlıq spektri formalaşdırmaqdadır. Bəyannamə iki ölkə arasında siyasi, iqtisadi, təhlükəsizlik, enerji və digər sahələrdə əməkdaşlığın sistemli şəkildə genişləndirilməsini nəzərdə tutur. İmzalanan sənədlər sırasında xüsusilə enerji, o cümlədən "yaşıl enerji", investisiya, nəqliyyat, turizm, prokurorluq, media və süni intellekt sahəsində əməkdaşlığa dair razılaşmalar diqqət çəkir. Bunlarla yanaşı, Azərbaycan-BƏƏ Birgə Biznes Şurasının yaradılması haqqında sənəd də mühüm əhəmiyyətə malikdir. Bu razılaşmalar iki ölkə arasında əlaqələrin yalnız ənənəvi sahələrlə məhdudlaşmadığını, eyni zamanda, müasir texnologiyalar və gələcəkyönümlü sahələrdə də əməkdaşlıq potensialının gücləndirildiyini göstərir.






### İqtisadi partnyorluq ildən-ilə yüksəlir...

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi sahədə əməkdaşlıq son illərdə dinamik inkişaf edir və konkret rəqəmlərdə öz təsdiqini tapır. Belə ki, cari ilin yanvar-oktyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 80 faizdən çox artaraq 147,49 milyon ABŞ dollarına çatıb. Bu artım qarşılıqlı iqtisadi maraqların genişləndiyini, eyni zamanda, imzalanmış sazişlərin real nəticələr verdiyini göstərir. İnvestisiya sahəsində isə Azərbaycan İnvestisiya Holdinqi ilə Əbu-Dabi İnkişaf Holdinqi tərəfindən yaradılmış Birgə İnvestisiya Fondu bir sıra prioritet layihələrin maliyyələşdirilməsinə və uzunmüddətli iqtisadi əməkdaşlığın möhkəmlənməsinə şərait yaradır.

Ölkələrimiz arasında ticarət və investisiya sahəsində əməkdaşlığın inkişafı üçün bir sıra mexanizmlər tətbiq olunur. 2017-ci ildən bəri Dubay şəhərində ölkəmizin Ticarət nümayəndəliyi, 2019-cu ildən isə yerli məhsulların BƏƏ və Körfəz ölkələrində satışını təşkil etmək və "Made in Azerbaijan" brendini BƏƏ bazarında daha çox tanıtmaq üçün "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Hazırda Azərbaycanda çox sayda BƏƏ investisiyalı kommersiya qurumu (sahələr: sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət, xidmət) qeydiyyatdadır. Bu əlaqələri yeni mərhələdə daha da inkişaf etdirmək üçün olduqca münbit bir zəmin mövcuddur.

### Humanitar əlaqələr yüksək səviyyədədir...

Əlaqələrimiz humanitar müstəvidə də dinamik inkişaf yaşayır. Bu mənada turizm sahəsini vurğulamaq olar - Bakı ilə Əbu-Dabi, Dubay və Şarja şəhərləri arasında həyata keçirilən birbaşa uçuşlar insanların gediş-gəlişini asanlaşdırmaqla yanaşı, humanitar təmasların genişlənməsinə də töhfə verir. Cari il ərzində təxminən 39 min BƏƏ vətəndaşının Azərbaycana səfəri turizm əlaqələrinin artan xətt üzrə inkişaf etdiyini göstərir. Bununla yanaşı, iki ölkə arasında tranzit daşımaların həcmi 20 faizdən çox artıb.

Eyni zamanda, BƏƏ hökumətinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində minatəmizləmə fəaliyyətinə dəstək məqsədlə ANAMA-ya 5 milyon ABŞ dolları məbləğində maliyyə yardımı ayırması postmünaqişə dövründə təhlükəsizliyin təmin olunmasına, bərpa və yenidənqurma proseslərinin sürətləndirilməsinə mühüm töhfədir.

Təhsil istiqamətində əlaqələr münasibətlərdə xüsusi yer tutur - 2024-cü ildə Azərbaycan Dillər Universitetində Şeyx Zayed adına ərəb dili auditoriyasının açılması iki ölkə arasında təhsil və mədəni əməkdaşlığın mühüm nümunələrindən biri hesab olunur. Azərbaycanın və BƏƏ-nin aparıcı ali təhsil müəssisələri arasında imzalanmış anlaşma memorandumları akademik mübadilənin, birgə elmi tədqiqatların və təcrübə proqramlarının genişləndirilməsinə imkan yaradır.

İki ölkə arasında mədəni əlaqələr də dinamik inkişafa malikdir - keçirilən mədəniyyət günləri, sərgilər və təqdimatlar xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə mühüm töhfə verir. Xüsusilə 2024-cü ildə Əbu-Dabi şəhərində təşkil olunmuş "Şuşa günləri" adlı tədbir Azərbaycanın zəngin tarixi və mədəni irsinin BƏƏ ictimaiyyətinə çatdırılması baxımından əlamətdar hadisə kimi dəyərləndirilir.

Beləliklə, Azərbaycanın BƏƏ ilə əlaqələrinin güclənməsi həm də Qlobal Cənubun inkişafına olduqca vacib komponentlər üzrə müsbət təsir göstərir. Qeyd edək ki, rəsmi Bakı son illərdə öz xarici siyasətində "Qlobal Cənub" adlanan inkişaf etməkdə olan ölkələrlə əməkdaşlığa xüsusi önəm verir - BƏƏ isə Yaxın Şərqdə Qlobal Cənubun aparıcı iqtisadi güclərindən biri sayılır. Bu nöqteyi-nəzərdən daha da sıx xarakter daşıyacaq əməkdaşlıq Qlobal Cənub üçün Cənub-Cənub əməkdaşlığının iqtisadi formatını təyin edə bilər.

### Alternativ enerji sahəsi üzrə dinamik tərəfdaşlıq

İki ölkə arasında müasir çağırışlara əsaslanan, yeni perspektiv yaradan sahələr üzrə tərəfdaşlıq əlaqələri də güclənməkdədir. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri Azərbaycanın strateji tərəfdaşı kimi enerji və iqtisadi inkişafa töhfə verir. Bu ölkənin nəhəng investoru "Masdar" Azərbaycanda ən potensial investorlardan biridir, şirkət 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyasına 262 milyon dollarlıq sərmayə yatırıb və stansiya ötən il istifadəyə verilib. "Masdar"la imzalanmış digər sazişlərə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Ümumi sərmayə dəyəri 1 milyard dollar məbləğində qiymətləndirilən 3 layihənin təməlinin atılması bərpaolunan enerji sektorunda böyük sərmayə bumunun nümunəsi hesab edilə bilər. Bundan başqa, "Masdar"la SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpaolunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb. Şirkət azərbaycanlı şirkətlərlə birgə Xəzər dənizində 3,5 qiqavat gücündə dəniz külək elektrik stansiyası layihəsi üzərində işləyir. İnvestisiya planına əsasən, Azərbaycanın bərpaolunan enerji sahəsinə 2 milyard dollardan artıq sərmayə yatırılacaq. Bu iri layihələr nəhəng investisiya portfelinin göstəricisi kimi, BƏƏ şirkətlərinin Azərbaycana olan yüksək münasibətini əks etdirir.

*Pərviz SADAYOĞLU*

# “Ulu Öndər Heydər Əliyev yolunun Müzəffər davamçısı”














“Konstitusiya və Suverenlik İli” çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Texniki Universitetinin birgə təşkilatçılığı ilə “Ulu Öndər Heydər Əliyev yolunun Müzəffər davamçısı” adlı tədbir keçirilib.

Tədbirdən öncə Universitetin inzibati binasında müasir müstəqil Azərbaycan Respublikasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.




Çıxış edən Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev qeyd edib ki, dövlət idarəçiliyində liderin fəaliyyəti uğurlu inkişafın əsası olmaqla bərabər, həm də sabitliyin möhkəmləndirilməsi, davamlı yüksəlişin təmin edilməsi və vətəndaş cəmiyyətinin bərqərar olması baxımından çox mühüm amildir: “Prezident İlham Əliyevin “Bizim sözümüz imzamız qədər dəyərlidir” fikri Onun verdiyi vədlərin əməli fəaliyyətdə öz əksini tapdığını göstərir. Dövlətimizin başçısının xalqa verdiyi vədləri yerinə yetirməsinin ən parlaq nümunəsi torpaqlarımızın işğaldan azad olunması və üçrəngli bayrağımızın bütün ərazilərimizdə ucaldılmasıdır. Hər bir azərbaycanlının Prezidenti olacağını vəd edən və ötən müddət ərzində sözünün sahibi olduğunu əməli işi, genişmiqyaslı fəaliyyəti ilə sübuta yetirən Prezident İlham Əliyev xalqın yüksək rəğbət və məhəbbətini qazanıb. Dövlət başçısının Azərbaycanın milli maraqlarını daim uca tutması xalqımızı Onun ətrafında sıx birləşdirib”.

V.Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti ölkənin inkişafında, eləcə də milli maraqların qorunmasında öz əksini tapır: “Bu siyasət həm də Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə və xalqın rifahının yüksəlməsinə xidmət edir. Prezident İlham Əliyevin ölkəmizə böyük uğurlar qazandırmış daxili və xarici siyasəti Azərbaycanı dünyada sabitlik adasına, multikulturalizm mərkəzinə, qlobal tədbir və görüşlərin keçirildiyi təhlükəsiz məkana çevirib. Əminliklə demək olar ki, Prezident İlham Əliyevin fəaliyyəti Azərbaycanın daha da güclənməsinə xidmət edəcək”.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, çağdaş Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları ilə bağlıdır: “Ulu Öndər Heydər Əliyev milli maraqlara əsaslanan uzaqgörən siyasəti ilə Azərbaycanın müstəqilliyinin daimiliyi, dönməzliyi və əbədiliyini təmin etməklə xalqımıza çoxsaylı uğurlar qazandırmışdır. Bu gün iftixarla qeyd edirik ki, hər birimizin sonsuz qürur mənbəyi olan müasir Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin millətimizə ən böyük mənəvi-siyasi mirasıdır”.

Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Ulu Öndərin tükənməz dövlətçilik irsini müasir çağırışlara uyğun zənginləşdirərək həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində misilsiz nailiyyətlər əldə edilmiş, xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilmiş, dünyada etibarlı və konstruktiv tərəfdaş kimi tanınmışdır: “Ən əsası, iqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən Azərbaycan öz ərazi bütövlüyü və tam suverenliyini bərpa etməklə Zəfər zirvəsinə yüksəlmişdir. Ata vəsiyyətini və xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirən Prezident İlham Əliyev Azərbaycanı Ulu Öndərimizin görmək istədiyi qalib və qüdrətli dövlətə çevirməklə bərabər, strateji hədəfləri ardıcıl olaraq gerçəkləşdirərək nəinki ölkəmiz, bütövlükdə regionumuz üçün yeni perspektivlər yaratmışdır”.

YAP Sədrinin müavini bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəqil və qətiyyətli siyasəti ölkəmizdə ictimai-siyasi sabitliyin və milli birliyin qorunmasına, sosial-iqtisadi inkişafın davam etməsinə, əhalinin rifahının daha da yaxşılaşmasına, Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdışın uğurla həyata keçirilməsinə və nəhayət, bölgədə sülh, təhlükəsizlik və çoxşaxəli əməkdaşlığın bərqərar olmasına hədəflənmişdir: “Ulu Öndərimizin dahiyanə söylədiyi bir fikir var: “Vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq”. Bu gün məhz Ulu Öndər Heydər Əliyevin yaratdığı güclü təməllər üzərində Prezident İlham Əliyev müasir, suveren, bütöv və yeni Azərbaycanı qurub. Şübhə yoxdur ki, öz Müzəffər Liderinin ətrafında sıx birləşən xalqımız bundan sonra da milli məqsədlərə nail olaraq daha qüdrətli Azərbaycan naminə yeni qələbələrə imza atacaqdır”.

Sonra çıxış edənlər Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində qazanılan uğurlardan bəhs ediblər.

Tədbirdə Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş Universitet əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib.

Daha sonra Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

Sonda bədii hissə təqdim olunub və xatirə şəkli çəkdirilib.

# Mina qurbanlarının sayı artır

## Daha bir mülki şəxs bu terrorun qurbanı olub

*Nardar BAYRAMLI*

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir.

**Bu dəfə Ağdamın Çəmənli kəndində...**

Dekabrın 17-də Ağdam rayonunda mina hadisəsi olub. Bu barədə Daxili Işlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyi (ANAMA) birgə məlumat yayıb. Bildirilib ki, işğaldan azad edilmiş Ağdam rayonunun Çəmənli kəndi ərazisində dekabrın 17-si saat 22:00 radələrində mina hadisəsi baş verib. “1982-ci il təvəllüdlü Sarıcalı kənd sakini Qədir Malik oğlu Məmmədov keçmiş təmas xəttində minalardan təmizlənməmiş ərazidə traktorla yer şumlayarkən tank əleyhinə mina partlayışı nəticəsində xəsarət alıb. Xəsarət alan şəxs xəstəxanaya təxliyə edilib. ANAMA, DİN və Baş Prokurorluq bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa, bələd olmadıqları ərazilərə daxil olmamağa, çəpərləmə fəaliyyəti aparılan ərazilərə müdaxilə etməməyə çağırır!”, - deyə birgə məlumatda qeyd olunub. Faktla bağlı Ağdam rayon Prokurorluğunda araşdırma aparılır.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsindən sonra artıq 400 nəfərdən çox Azərbaycan vətəndaşı Ermənistanın mina terrorunun qurbanına çevrilib. Bu, yalnız fiziki deyil, həm də insanların psixoloji və sosial baxımdan dərindən təsirləndiyi ciddi bir problemdir. İşğal dövründə ərazilərimizə basdırılmış minalar regionda qalıcı sülhün bərqərar olmasına ciddi təhdid yaradır. Bu təhlükənin qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq və yardımlar



olduqca vacibdir. Eyni zamanda, Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdəki humanitar vəziyyətin ciddi şəkildə nəzərə alınması və Ermənistanın beynəlxalq hüquq çərçivəsində məsuliyyətə cəlb edilməsi aidiyyəti beynəlxalq qurumlar qarşısında mühüm bir öhdəlik olaraq qalmaqdadır. Minaların məqsədli şəkildə basdırılması insan hüquqlarının ciddi şəkildə pozulmasına, regionda sülhün və təhlükəsizliyin bərpasını çətinləşdirməyə səbəb olur.

**Problem bərpa işlərinə əngəl yaradır**

Digər tərəfdən, ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar işğaldan azad edilmiş bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına ciddi maneə törədir. Ermənistan tərəfindən 30 ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir. Xüsusilə, mina qurbanlarının sayının artmasının əsas səbəblərindən biri Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir.

Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın minaları təmas xəttindən kənarda da basdırmasının məqsədi mülki insanların daha çox itki verməsi məqsədi daşıyır. Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir. Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə, dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir.

**Beynəlxalq ictimaiyyət dəstək verməlidir**

Ölkəmiz beynəlxalq ictimaiyyəti mütəmadi olaraq Ermənistanın mina terror barədə məlumatlandırır, müxtəlif platformalar çərçivəsində bu yöndə tədbirlər keçirir. Məqsəd beynəlxalq birliyin diqqətini problemin həllinə yönəltməkdir. Bütün bunları nəzərə alaraq, beynəlxalq ictimaiyyət minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməli, Azərbaycanın davam edən minatəmizləmə səylərinə dəstək olmalıdır. Çünki sözügedən ərazilər minalarla həddən artıq çirkləndirilib. Müsbət haldır ki, ölkəmizin dostları bu istiqamətdə öz dəstəyini göstərir. Bütün bunlarla yanaşı, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır.

# MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 74-cü iclası keçirilib



Dekabrın 18-də Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının videokonfrans formatında növbəti 74-cü iclası keçirilib.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun sədrliyi ilə keçirilən videokonfransda MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, MDB Baş katibinin müavini, Avrasiya İqtisadi Komissiyasının Statistika Departamentinin direktor müavini, üzv dövlətlərin statistika qurumlarının rəhbərləri və rəhbər müavinləri iştirak ediblər.

Şuranın iclasında "MDB Statistikasının İnkişafı" Layihəsinin gedişatı və bu layihənin 2026-cı il üçün iş planı, Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Statistika Komitəsinin 2026-cı il üçün İş Proqramı, MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasına 2026-cı ildə sədrlik və Şuranın 75-ci iclası haqqında məsələlər müzakirə edilib, həmçinin MDB Üzv Dövlətlərinin Statistika Xidmətləri Rəhbərləri Şurasının 74-cü iclası haqqında kommünike qəbul olunub.

# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovla BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi xanım Vladanka Andreyeva arasında görüş keçirilib







Dekabrın 18-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovla BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi xanım Vladanka Andreyeva arasında görüş keçirilib.

Görüşdə bünövrəsi Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən keyfiyyətcə yeni mərhələyə yüksəldilmiş ölkəmizlə BMT arasındakı əməkdaşlıqdan, bu əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin, xüsusilə də "2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi"nin icrasının, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının, "Milli Dayanıqlı İnkişaf Məqsədlərinin Monitorinq Sistemləri üzrə BMT-DSK Birgə İşçi Qrupu"nun yaradılmasının, BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) və Dövlət Statistika Komitəsi arasındakı əməkdaşlıq çərçivəsində "DİM-lər üçün məlumatların dezaqreqasiyası" adlı praktiki vəsaitin hazırlanmasının statistikanın inkişafı istiqamətində mühüm addımlardan olduğu, BMT-nin Uşaq Fondunun dəstəyi ilə 2023-cü ildə keçirilmiş Çoxgöstəricili Klaster Sorğusu nəticəsində 18 DİM göstəricisi üzrə məlumatların əldə edildiyi bildirilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında imzalanmış 2026-2030-cu illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi (UNSDCF) müzakirə edilmiş, milli statistika sistemlərinin gücləndirilməsi, DİM-lərin monitorinqi və hesabatlılığı istiqamətində fikir mübadiləsi aparılmışdır.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ölkəmizdə fəaliyyəti başa çatan BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi Vladanka Andreyevaya faydalı əməkdaşlıq üçün təşəkkür etmiş və gələcək fəaliyyətində uğurlar arzulamışdır.

BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi xanım Vladanka Andreyeva səmimi görüşə görə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqova öz minnətdarlığını bildirmişdir.

# Hərbi sahədə əməkdaşlıq güclənir

## 17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında əsas fəaliyyət istiqamətləri diqqət mərkəzində olub

Azərbaycanla Türkiyə arasında münasibətlər bütün sahələr üzrə uğurla davam edir. Dost və qardaş, strateji müttəfiq olan iki ölkənin əlaqələrində hərbi sahədə də əməkdaşlıq xüsusi yer tutur. Bakıda 17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının keçirilməsi bunun göstəricisidir.

**Ordu generalı Levent Ergünün başçılığı ilə...**

Müdafiə Nazirliyindən verilən məlumata görə, iclas çərçivəsində Azərbaycan müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının 2-ci rəisi, ordu generalı Levent Ergünün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. O, Azərbaycan və Türkiyə arasında bütün sahələrdə, o cümlədən hərbi sahədə əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib və bu əməkdaşlığın daha da genişləndirilməsinin hər iki tərəf üçün əhəmiyyətini diqqətə çatdırıb.

Keçirilən görüşlərin və icra olunan birgə fəaliyyətlərin bundan sonra da intensivləşəcəyini bildirən ordu generalı L.Ergün qarşılıqlı təcrübə mübadiləsinin hər iki ordu üçün səmərəli olacağını qeyd edib.

Görüşdə Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq sahəsindəki cari fəaliyyət mexanizmləri barədə geniş müzakirələr aparılıb. Hərbi Dialoq İclasının növbəti mərhələsində Alt İşçi Qrupları tərəfindən ikitərəfli hərbi əlaqələrin cari vəziyyəti təhlil edilərək, perspektivdə duran vəzifələrin yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətləri haqqında fikir mübadilələri aparılıb.

Qeyd edək ki, müdafiə naziri, general-



polkovnik Zakir Həsənov 17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək üçün ölkəmizə səfər edən Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının 2-ci rəisi ordu generalı Levent Ergünün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. General-polkovnik Z.Həsənov Azərbaycan və Türkiyə arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirib, hərbi əməkdaşlığımızın daha da inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin vacibliyini qeyd edib. Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını xüsusi vurğulayıb. Ordu generalı L.Ergün isə ölkələrimiz arasında əlaqələrin qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığını diqqətə çatdırıb.

Görüşdə hər iki qardaş ölkə arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın yeni perspektivləri, həmçinin regional təhlükəsizlik və maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Ordunun gücləndirilməsi prioritetdir**

Məlumdur ki, Azərbaycanın dövlət siyasətinin ən mühüm prioritetlərindən olan ordu quruculuğu özünün müsbət nəticələrini ortaya qoymaqdadır. 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, antiterror tədbirləri zamanı ortaya qoyulan peşəkarlıq və operativlik ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər bu sahədə həyata keçirilən davamlı islahatların və məqsədyönlü tədbirlərin nəticəsində Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır.

**Şuşa Bəyannaməsi hərbi sahədə əməkdaşlığı dərinləşdirib**

Azərbaycanda müasir ordu quruculuğu işləri davam edir və yeni mərhələdə silahlı qüvvələrimiz Türkiyə modelinə uyğunlaşdırılır.

Məsələ ilə bağlı fikirlərini "Yeni Azərbaycan"a bölüşən hərbi ekspert Emin Həsənli bildirib ki, Azərbaycan Prezident İlham Əliyevin tapşırığına uğun olaraq silahlı qüvvələrimiz Türkiyə modelinə keçir və ordu quruculuğu istiqamətində qardaş Türkiyənin modeli əsas götürülür. Bu istiqamətdə xeyli işlər görülüb. Xüsusi olaraq dağ komanda birlikləri, hərbi hissələr yaradılıb ki, müasir döyüşlərdə və yeni müharibələrdə onun çox böyük önəmi var. Eyni zamanda, xüsusi təyinatlılarımızın sayının artırılması istiqamətində də xeyli addımlar atılıb. Azərbaycan Silahlı Qüvvələri ştat-zabit strukturuna uyğun olaraq, Türkiyə modelinə keçib və bu keçiddə qardaş Türkiyənin xüsusi rolu var. Onun sözlərinə görə, Şuşa Bəyannaməsi bir çox istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığı dərinləşdirib: "Türkiyə ordusu ilə ayrı-ayrı qoşun birliklərimiz fəal əməkdaşlıq edir. Eləcə də, antiterror əməliyyatlarının keçirilməsi, dağda və ərazilərdə əməliyyatların keçirilməsi və sair istiqamətlərdə birgə təlimlər keçirilib. Bu təlimlərin əhəmiyyəti odur ki, Azərbaycan ordusu istənilən situasiyaya hazır vəziyyətdədir. Bundan başqa, Azərbaycan ordusunun tərkibində "Komando" birliklərinin yaradılması da Türkiyə təcrübəsinin nümunəsidir".

Həmsöhbətimiz diqqətə çatdırıb ki, Türkiyə ilə hərbi sahədə təcrübə mübadiləsi bu gün də davam etdirilir. Hazırda yeni proqramlarla hərbi təhsil aparılır. Bu təhsil modeli daha güclü və daha effektiv olacaq. Hərbi məktəbdən buraxılan gələcəyin zabitləri həm idarəetmə, həm qərar qəbuletmə qabiliyyətinə görə daha savadlı yetişəcəklər. Digər tərəfdən, ən əsas məsələ vətənpərvərlik hissinin güclü şəkildə aşılanması, Vətənə sevgi, dövlətə sədaqətli olmaqdır. Türkiyə ilə təcrübə mübadiləsi bizə həm də təhsilin yeni formaya keçirilməsində kömək edib. Türkiyənin aparıcı hərbi məktəblərində həm müəllimlərimiz, həm hərbçilərimiz təhsil alıblar.

Ekspert qeyd edib ki, Azərbaycan mühüm geosiyasi regionda yerləşir. Ona görə də, ordu quruculuğu daim xüsusi diqqət mərkəzindədir. "Azərbaycan və Türkiyə bu istiqamətdə öz üzərinə düşəni edir. Azərbaycan Ordusu daha da peşəkarlaşır, təkmilləşir və hər an istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Türkiyə ordusu dünyanın ən güclü, ən müasir ordularından biridir. Azərbaycan Ordusunun da peşəkarlığı yüksək səviyyədədir. Vətən müharibəsi bunu sübut edib. Ordumuzun daim yüksək səviyyədə olması üçün dövlət hərtərəfli diqqət və qayğı göstərir. Bu sahədə Türkiyə ilə əməkdaşlıq bundan sonra da davam edəcək. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq iclaslarının keçirilməsi də bu prosesdə vacib rol oynayır", - deyə E.Həsənli vurğulayıb.

***Nardar BAYRAMLI***

# Xəzərdə yeni neft anlaşması

## SOCAR BƏƏ şirkətləri ilə əməkdaşlığı artırır

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Birləşmiş Ərəb Əmirliklərinin "Emirates National Oil Company Group" ("ENOC Group") arasında kəşfiyyat, hasilat, rəqəmsallaşma, ticarət, marketinq istiqamətlərində əməkdaşlıq məsələləri müzakirə edilib. Tərəflər enerji sektorunun müxtəlif istiqamətləri üzrə, o cümlədən qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıblar.

"ENOC Group"un İdarə Heyətinin üzvü və baş icraçı direktoru Hussein Lutah isə vurğulayıb ki, son dövrlərdə BƏƏ ilə intensivləşən iqtisadi münasibətlər fonunda enerji infrastrukturu, "yaşıl enerji", investisiyalar, ağıllı texnologiyalar, mədən sənayesi və digər sahələrdə birgə əməkdaşlıq və qarşılıqlı investisiyaların cəlb edilməsi daha da aktual mövzuya çevrilib.

Ərəb şirkətlərinin SOCAR və Energetika Nazirliyi ilə daha da möhkəmlənən əlaqələrində yeni enerji və hidrogen emalı, "yaşıl enerji" istehsalı məsələləri ön planda dayanır və praktiki addımlar atılmaqdadır.

**"Dragon Oil" Xəzərdə**

Görüşdə cari ilin noyabrında SOCAR ilə BƏƏ-nin "Dragon Oil" şirkəti arasında imzalanan Anlaşma Memorandumunun əhəmiyyətinə də toxunulub. Vurğulanıb ki, bu saziş əlaqələrin genişləndirilməsi baxımından mühüm önəm daşıyır.

Qeyd edək ki, dünya neft-qaz sənayesində tanınmış korporasiyalardan olan "Dragon Oil" Xəzər dənizində də istismar fəaliyyəti sahəsində təcrübə qazana bilib. Belə ki, Xəzərin Türkmənistan sektorunda-kı 19-cu blokda neft-qaz quyusunda kəşfiyyat işləri apardıqdan sonra gündəlik 20 min barel neft hasilatına nail olmaq məqsədi ilə yatağın sınaq mərhələsində çalışan ərəb şirkəti "Türkmennebit" konserni ilə sıx əməkdaşlıq qurub. Ötən il "Türkmennebit" və "Dragon Oil" arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, BƏƏ şirkəti "Çələkən" bloku yaxınlığında üç perspektivli yatağın işlənməsində ilk işlərə başlayıb. Bu baxımdan, "Dragon Oil"in Xəzər dənizində neft-qaz hasilatındakı təcrübəsi SOCAR-la əməkdaşlıq üçün də əhəmiyyət daşıyır.

SOCAR və BƏƏ-nin "Crescent Petroleum" şirkəti arasında da enerji sektorunun müxtəlif istiqamətləri üzrə əməkdaşlıq nəzərdə tutulur. Həmçinin, Dövlət Neft Şirkəti və Birləşmiş Ərəb Əmirliklərinin "AD Ports Group" şirkəti arasında neft və neftkimya məhsullarının logistikası üzrə əməkdaşlıq perspektivləri diqqətdə saxlanılır.

**BƏƏ "yaşıl enerji"yə böyükhəcmli sərmayə yatırır**

Ümumiyyətlə, son dövrlərdə BƏƏ ilə intensivləşən iqtisadi münasibətlər fonunda enerji infrastrukturu, "yaşıl enerji", investisiyalar, ağıllı texnologiyalar, mədən sənayesi və digər sahələrdə birgə əməkdaşlıq və qarşılıqlı investisiyaların cəlb edilməsi daha da aktual mövzuya çevrilib. Ərəb şirkətlərinin SOCAR və Energetika Nazirliyi ilə daha da möhkəmlənən əlaqələrində yeni enerji və hidrogen emalı, "yaşıl enerji" istehsalı məsələləri ön planda dayanır və praktiki addımlar atılmaqdadır.

BƏƏ-nin nəhəng investoru "Masdar" Azərbaycanda ən potensial investorlardan biridir, şirkət 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyasına 262 milyon dollarlıq sərmayə yatırıb və stansiya ötən il istifadəyə verilib. "Masdar"la imzalanmış digər sazişlərə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Ümumi sərmayə dəyəri 1 milyard dollar məbləğində qiymətləndirilən 3 layihənin təməlinin atılması bərpaolunan enerji sektorunda böyük sərmayə bunun nümunəsi hesab edilə bilər. Bundan başqa, "Masdar"la SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpa olunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb.

"Masdar" şirkəti Azərbaycanlı şirkətlərlə birgə Xəzər dənizində 3,5 qiqavat gücündə dəniz külək elektrik stansiyası layihəsi üzərində işləyir. İnvestisiya planına əsasən, Azərbaycanın bərpaolunan enerji sahəsinə 2 milyard dollardan artıq sərmayə



yatırılacaq. Bu iri layihələr nəhəng investisiya portfelinin göstəricisi kimi BƏƏ şirkətlərinin Azərbaycana olan yüksək münasibətini əks etdirir.

**Ərəb şirkəti ölkəmizdə "ağıllı qaz" idarəetmə texnologiyalarını quracaq**

SOCAR-ın BƏƏ şirkətləri ilə əlaqələrinin digər istiqaməti metan qazının və qalıq yanacağın həcmlərinin azaldılması, bərpaolunan enerji və "ağıllı qaz" texnologiyalarının tətbiqi və digər sahələri nəzərdə tutur. Bir neçə ay əvvəl əldə edilmiş razılığa əsasən, BƏƏ-nin "Esyasoft Holding" LTD şirkəti ilə "ağıllı qaz" şəbəkəsinin layihələndirilməsi, qurulması və istifadəyə verilməsi haqqında müqavilə imzalanıb ki, layihənin əsas məqsədi qabaqcıl "ağıllı qaz" idarəetmə sistemi texnologiyalarının Azərbaycanda tətbiqini nəzərdə tutur. BƏƏ şirkəti Azərbaycan ərazisində qazın paylanması sahəsində əməliyyat səmərəliliyini artırmaq, xərcləri optimallaşdırmaq, mövcud qaz itkilərini azaltmaq üçün SOCAR-a dəstək verəcək. Layihə 2,5 milyon "ağıllı sayğac"ın quraşdırılması və sistemə dəstək mərhələləri nəzərə alınmaqla təxminən 14 illik dövrü əhatə edəcək. Bu dövr ərzində 480 milyon dollar sərmayənin yatırılması nəzərdə tutulur. Bu sərmayə yaxın gələcəkdə şəbəkənin rəqəmsallaşdırılmasının, "ağıllı təzyiq" və temperatur sensorlarının quraşdırılmasının, "Rəqəmsal həllər laboratoriyası"nın (Digital Solutions Lab) yaradılmasının, əməkdaşların qabaqcıl texnologiyalar üzrə təliminin və beynəlxalq təcrübə mübadiləsinin təşkilinin, süni intellektin tətbiqi, məlumatların "hökumət buludu"nda yerləşdirilməsi ilə informasiya təhlükəsizliyinin təmin olunmasının, eləcə də müasir texnologiyalarla təchiz edilmiş idarəetmə mərkəzinin qurulmasının mümkünlüyünə imkan verəcək.

***E.CƏFƏRLİ***

# Ədalət və mərhəmətin vəhdəti...

İnsan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi hər zaman dövlət siyasətimizin əsas istiqamətini təşkil edib. Demokratik, hüquqi, sivil dövlət quruculuğu yolunu tutan Azərbaycanın atdığı addımlar, malik olduğu təcrübə beynəlxalq səviyyədə təqdir edilir. İnsan amilinə dəyər bu günümüzə və gələcəyimizə hesablanmış siyasətin əsasını təşkil edir.

Məlum olduğu kimi, dekabrın 15-də Prezident İlham Əliyev amnistiya elan olunması təşəbbüsünü irəli sürüb. “Konstitusiya və Suverenlik İli” münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi parlamentin bu gün - 19 dekabrda keçiriləcək iclasında müzakirəyə çıxarılacaq. Qeyd edək ki, bu amnistiya aktı miqyasına görə ölkə başçısının 22 illik hakimiyyəti dövründə irəli sürülmüş 7-ci və ən geniş əhatəli hüquqi sənəddir.

## Humanizm və mərhəmət prinsipi

Hüquqşünas, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, Prezidentin amnistiya aktının qəbul edilməsi ilə bağlı təşəbbüslə çıxış etməsi olduqca humanist bir addımdır: “Ümumiyyətlə, Prezidentin apardığı siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır və humanizm, mərhəmət prinsipləri onun əsas istiqamətlərindən biridir. Amnistiya və əfv anlayışlarını dəqiq ayırmaq lazımdır. Belə ki, amnistiya Milli Məclisin qəbul etdiyi normativ hüquqi aktdır, geniş şəxslər dairəsinə şamil olunur və kütləvi xarakter daşıyır. Əfv isə Prezidentin fərdi səlahiyyətidir və konkret şəxslərə münasibətdə tətbiq edilir. Hazırda söhbət əfvdən deyil, məhz amnistiya təşəbbüsündən gedir.

Amnistiya aktı qəbul edilərsə, ona aşağıdakı kateqoriyadan olan şəxslər daxil edilə və onlara şamil oluna bilər:

Dövlətin ərazi bütövlüyünün müdafiəsində iştirak etmiş şəxslər, o cümlədən Vətən müharibəsində iştirak edənlər;

2023-cü il 19-20 sentyabr tarixlərində keçirilmiş antiterror əməliyyatlarında iştirak edən şəxslər;

Həmin əməliyyatlar zamanı həlak olmuş və ya xəsarət almış şəxslərin yaxın qohumları;

Ermənistanın hərbi təxribatları nəticəsində zərər çəkmiş şəxslər;

Mülki əhaliyə qarşı hərbi təxribatlar nəticəsində zərər görmüş şəxslər;

Sosial baxımdan həssas qruplar-qadınlar, 60 yaşına çatmış və daha yuxarı yaşda olan şəxslər;

Yetkinlik yaşına çatmayanlar və digər humanitar əsaslı kateqoriyalar”.



## Əvvəlki amnistiya aktları ilə müqayisədə...

Ə.Nuriyev bir qayda olaraq, amnistiya aktının böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş və ya cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərə şamil edildiyini bildirib: “Buraya az ağır və ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum olunmuş şəxslər daxildir. Bu kateqoriyaya aid olan şəxslər ya tam azad edilə, ya cəza müddəti azaldıla, ya da cinayət məsuliyyətindən ümumiyyətlə azad edilə bilərlər. Eyni zamanda, ümumi hüquqi praktikaya əsasən, amnistiya ağır və xüsusilə ağır cinayətlərə - terrorçuluğa, dövlətə xəyanətə, qəsdən adam öldürməyə, təkrar ağır zorakılıq cinayətlərinə adətən şamil edilmir. Bu məsələlər amnistiya aktının yekun mətnində açıq şəkildə göstəriləcəkdir. Amnistiya aktının gözlənilən miqyasına gəlincə, nəzərə alsaq ki, bu təşəbbüs Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasından və Konstitusiyanın bütün ərazilərdə tətbiqindən sonra irəli sürülüb, onun miqyasının geniş olacağı ehtimal edilir. Mətbuatda yayılan məlumatlar da bunu deməyə əsas verir. Xatırladaq ki, 2021-ci ildə qəbul edilmiş Zəfər amnistiyası 17 min 200-dən artıq şəxsə şamil edildi. Hazırkı amnistiya aktı da minlərlə şəxsə şamil oluna bilər. Təxminən 5 minə yaxın şəxsin cəzadan tam və ya qismən azad edilməsi ehtimalı var. Bu, əvvəlki amnistiya aktları ilə müqayisədə kifayət qədər geniş miqyaslı ola bilər”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti üzrə hazırlanmışdır**

## Konstitusiyanın bütün ərazilərdə tətbiqi yüksək qiymətləndirilir

Ə.Nuriyev vurğulayıb ki, bu təşəbbüs hüquq, dövlətçilik, humanizm və mərhəmət prinsipləri, postmüharibə dövründə sosial reinteqrasiya və Konstitusiyanın bütün ərazilərdə tətbiqi kontekstində yüksək qiymətləndirilməlidir: “Təsadüfi deyil ki, amnistiya aktı Konstitusiyanın qəbulunun və onun bütün ölkə ərazisində tam tətbiqinin rəmzi davamı kimi dəyərləndirilir. Bütün bunlar ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması üçün atılan mühüm addım kimi qəbul olunur. Belə bir humanist addıma görə cənab Prezidentə minnətdarlığımızı bildirir və bu təşəbbüsü bir daha alqışlayırıq”.

*Yeganə*

# Qarşılıqlı etimad əsasında...

Azərbaycan və İsrail mövcud potensiallarından səmərəli istifadə etməklə iqtisadi tərəfdaşlığı daha da dərinləşdirmək, qarşılıqlı investisiyaları və ticarət dövriyyəsini artırmaq niyyətindədir. Hər iki ölkə bölgədə sülh və rifaha xidmət edən regional layihələrdə də yaxın tərəfdaşlığı gücləndirməklə böyük əməkdaşlıq platformasının yaradılmasını məqsəduyğun hesab edir. Azərbaycan-İsrail Hökumətlərarası Birgə Komissiyanın həmsədri Mikayıl Cabbarovla İsrailin maliyyə naziri Zeev Elkinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə qeyd edilən məsələlərə toxunulub. Görüşdə İsraillə iqtisadi əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri nəzərdən keçirilib, əməkdaşlığın gündəmində olan aktual məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər enerji, ticarət, investisiya, kənd təsərrüfatı, rəqəmsallaşma, innovasiya, logistika və digər sahələrdə qarşılıqlı fəaliyyətin təşviq imkanlarına diqqət çəkiblər.

**Azərbaycan və İsrail iqtisadi tərəfdaşlığı artırmaq niyyətindədir**

## Birgə sərmayə qoyuluşları artır

Azərbaycan və İsrail arasında iqtisadi əlaqələr son illərdə daha da inkişaf edərək yeni sahələrdə birgə layihələrin icrası üçün dərin zəmin yaratmaqdadır. Hər iki ölkənin biznes icması və iqtisadi strukturları arasında intensivləşən münasibətlər iqtisadi-ticari, investisiyalar üçün yeni imkanlar açır. Həmçinin, davamlı xarakter alan Biznes-forumlar sahibkarlar arasında təşəbbüskarlığı daha da artırır.

Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin Azərbaycanın İsraildəki Ticarət nümayəndəliyi ölkələrimiz arasında tərəfdaşlığın inkişafı üçün əhəmiyyətli platformalar kimi mühüm yer tutur. Əlaqələrin daha da gücləndirilməsi, yeni sahələrdə fəaliyyət imkanlarının araşdırılmasında Birgə Komissiya mühüm platforma kimi faydalı nəticələrin əldə olunmasına töhfə verir. Həmçinin, İsraildə əsası qoyulmuş Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası iki ölkə arasında mədəni, elmi, iqtisadi əməkdaşlığın genişlənməsində böyük rol oynayır.

Hazırda Azərbaycanda sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət sahələri üzrə 125 İsrail kapitallı kommersiya qurumu fəaliyyət göstərir. Azərbaycan və İsrail şirkətləri maliyyə və qida texnologiyaları, kənd təsərrüfatı və səhiyyə sahələrində fəal iş həyata keçirir. Bu da Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və texnoloji inkişafı baxımından əhəmiyyətlidir. Eyni zamanda, kənd təsərrüfatı, qida, su və enerji texnologiyaları, dərman sənayesi, biotexnologiya və digər sahələrdə fəaliyyətin genişləndirilməsi üçün böyük potensial mövcuddur və israilli şirkətlərin bu sahələrə sərmayə yatırımlarında dinamika nəzərə çarpır.




Yeri gəlmişkən, Azərbaycanın son dövrlərdə xarici ölkələrin iqtisadiyyatına yatırdığı investisiyaların həcmində İsrailin payı artmaqdadır. 2025-ci ilin yanvar-sentyabr aylarında İsrailə ölkəmiz tərəfindən 542,6 milyon dollar həcmində sərmayə yatırılıb ki, kapitalın əsas hissəsi “Tamar” qaz yatağı layihəsinə yönəldilib. Qeyd edək ki, cari ilin yanvar ayında Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə “Union Energy” şirkəti arasında İsrailin Aralıq dənizi hövzəsindəki ən iri qaz yataqlarından biri olan “Tamar” layihəsi üzrə 10 faiz payın əldə edilməsinə dair saziş imzalanıb. Bununla da SOCAR İsrailin təbii qaz bazarına çıxış imkanı qazanıb. Azərbaycan bu perspektivli qaz blokunda investor və enerji tədarükçüsü statusu qazanmaqla Aralıq dənizi regionunda potensial enerji təchizatçına çevriləcək.

## Biznes forumlar iqtisadi təmasları gücləndirir

İsrail Azərbaycanın əsas ticarət tərəfdaşları sırasında mühüm yer tutur. Bu ölkə ilə respublikamız arasında qarşılıqlı investisiya, həmçinin, energetika, kənd təsərrüfatı, İT, innovasiya, əczaçılıq, turizm və s. sahələr üzrə səmərəli əməkdaşlıq mövcuddur. İsrail şirkətləri ilə həmçinin, sənaye zonaları və aqroparklar, su təsərrüfatı və digər sahələr üzrə də tərəfdaşlıq edilir. İsraillə innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq Azərbaycan üçün xüsusi önəm daşıyır.

Azərbaycanın İsraildə səfirliyinin fəaliyyətə başlaması münasibətlərin yeni mərhələyə yüksəlməsində təkanverici rol oynayıb, bir sıra sahələrdə birbaşa təmaslar üçün hüquqi-iqtisadi sütunlar yaradıb.

Qarşılıqlı münasibətlərin inkişafında Azərbaycan-İsrail Biznes forumları da mühüm rol oynamaqdadır. Tərəflər arasında ötən illərdə imzalanmış kənd təsərrüfatı sahəsində əməkdaşlıq sazişi, gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında” konvensiya, iqtisadi sahəyə dair anlaşma memorandumları ticari-investisiya dinamikasını artırıb. Son illərdə ticari mübadilələrin həcmi artaraq 1 milyard dollara yaxınlaşıb.

## Kosmik sənayedə müştərək uğurlar

İsrail və Azərbaycan arasında son illərdə müasir sənaye quruculuğu, süni intellekt, kibertəhlükəsizlik sahələrində əməkdaşlıq daha da intensivləşib. Azərbaycanın 2026-cı ildə fəzaya buraxmağa hazırlaşdığı növbəti optik müşahidə peykinin hazırlanmasında israilli peşəkar mütəxəssislər də iştirak edir. “Azərkosmos” və “Israel Aerospace Industries” (IAI) şirkəti arasında imzalanmış müqaviləyə əsasən, “Azersky-2” kosmik peykinin dünya peyk ailəsinə qoşulması nəzərdə tutulur. Dünyanın ən güclü texnologiya şirkətlərindən olan “Israel Aerospace Industries” şirkəti yeni peykin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağında azərbaycanlı mütəxəssislərə köməkliyini göstərməkdədir. “IAI” proqram çərçivəsində “Azersky-2” üzrə iki peykin hazırlanması planlaşdırılır. İsraillə birgə 2026-cı ildə yeni peykin orbitə çıxarılmasından sonra 2028-ci ildə daha bir “Azersky-2” qurğusu fəzaya buraxılacaq.

“İsrael Aerospace Industries” şirkəti dünyada unikal sənaye və kosmik mallar tədarükçüsü olmaqla Azərbaycanda da yeni innovasiyaların təşviqində və yeni nəsil texnologiyaların hazırlanmasında dəstəyini göstərmək niyyətindədir. Süni zəka layihələrində tərəfdaşlıq üzrə səmərəli platforma qurulmaqdadır. Ölkələrimiz arasında kibertəhlükəsizlik üzrə də yeni imkanlar dəyərləndirilir.

Digər sahələrdə də əməkdaşlıq üçün potensial imkanların artırılması Azərbaycan və İsrail arasında müəyyən edilmiş iqtisadi hədəflərə çatmaqda mühüm rol oynayacaq.

*E.CƏFƏRLİ*

# Kriptovalyuta ilə bağlı sənəd hazırlanır

Azərbaycanda kriptovalyuta və bütün növ virtual aktivlər üzrə tənzimləmənin təmin edilməsi məqsədilə tədris və məlumatlandırma xarakterli sənəd hazırlanır. "Azərbaycan Fintex Assosiasiyası" (AzFina) İctimai Birliyi İdarə Heyətinin sədri Edqar Abdullayev bildirib ki, kriptovalyuta sahəsində gəlir mənbələrinin şəffaflığı ilə bağlı ciddi suallar mövcuddur ki, bu da maliyyə inklüzivliyi və maliyyə sabitliyi baxımından yeni risklər yaradır. Ona görə də, bu prosesdə tənzimləyici qurumun - Mərkəzi Bankın (MB) və müvafiq xidmətləri göstərən subyektlərə olan etimadı olmalıdır.

E.Abdullayev qeyd edib ki, stabilkoinlər və növbəti mərhələlərlə bağlı artıq ilkin yanaşma formalaşıb. Hazırda stabilkoinlər və digər virtual aktivlər üzrə fundamental tənzimləyici sənədin hazırlanmasına dair ilkin plan mövcuddur. Gələcəkdə bu proses mərhələli şəkildə idarə olunacaq və biznesin ümidi perspektivdə Mərkəzi Bank tərəfindən tənzimlənən stabilkoinin təqdim edilməsinə müsbət verəcəyi yönündədir.

## "PortCoin" kriptovalyutasının alışı və satışı həyata keçirilsə də...

Qeyd edək ki, Azərbaycanda sınaq test kimi "Mobile Payment Solutions" MMC şirkəti (Portmanat brendi) "PortCoin" adlı kriptovalyuta yaradılaraq istifadəyə verilib. "PortCoin" kriptovalyutasının "Portmanat" onlayn ödəniş sistemi üzərindən alışı və satışı həyata keçirilir. "PortCoin" rəqəmsal aktivlər və blokçeyn texnologiyalarını istifadə edərək müasir maliyyə sistemlərini inkişaf etdirmək məqsədilə yaradılıb və Mərkəzi Bank tərəfindən verilmiş EPT-005 saylı lisenziya əsasında xidmətlər göstərir. "Xüsusi tənzimləmə rejimi" çərçivəsində sınaqdan keçirilən blokçeyn əsaslı bu, kripto-aktiv platforma istifadəçilərə kriptovalyuta alışı, satışı, idarəsi və xarici kripto pulqabılardakı vəsaitlərin rahatlıqla Azərbaycan manatına (AZN) çevrilməsi xidmətlərini təklif edir. Ancaq bu, Azərbaycanda kriptovalyutanın maliyyə sistemində hələ tətbiqi demək deyil.

Azərbaycanda kriptovalyutalara investorlarda böyük maraq olsa da, ümumi monetar yanaşma konservativdir. Kriptovalyuta sektoru yüksək riskli investisiya aktivləri olduğundan onun maliyyə sektorunda tətbiqi təhlükəli sayılır. Bu sahədə hüquqi infrastrukturun olmaması belə sərt xarici şoklar yarada, daxili valyuta bazarında sabitlik pozula bilər. Eyni zamanda, hazırda ölkəmizdə kriptovalyutaların onlayn alışı və satışı halları mövcud olmasına baxmayaraq, bu risk alətlərinin tənzimlənməsi üçün qəti addımların atılması da aktualdır. Mərkəzi Bank bu sahədə tənzimlənmənin aparılması üçün müxtəlif ssenarilər işləyir və öz strategiyası çərçivəsində tədbirlər görmək niyyətindədir.

Kriptovalyutanın kəskin qiymət sıçrayışları valyuta seqmentində də narahatlıqlar yaradır. Blokçeyn texnologiyaları üzrə qlobal ekspertlər hesab edirlər ki, 2026-cı ildə bu sahənin potensialı özünü real olaraq göstərəcək və dünya maliyyə sisteminə kəskin təsirləri olacaq. Kriptovalyuta bazarının 2025-ci ildəki böyüməsi faktiki olaraq maliyyə sektorunda investorlarda böyük marağı artırıb. Xüsusilə də, ABŞ Prezidenti Trampın virtual pul bazarının tərəfdarı kimi kripto sənayesinə xüsusi institusional dəstəyi virtual maliyyə seqmentinin irəliləməsinə təkan verdi. Bu proseslər fonunda qlobal səhmdarlar cari il ərzində kifayət qədər "Bitcoin" aktivləri topladı. Rəqəmsal pulun az qala tədavül alətlərini geridə qoyması hətta "Mastercard", "Viza", "SWIFT" şirkətlərinin "Bitcoin"in beynəlxalq ödəniş mübadilə sisteminə inteqrasiyasının mümkünlüyünü düşünməyə vadar etməkdədir. "Bitcoin"in həm yığım, həm də tədavül vasitəsinə çevrilməklə qlobal maliyyə sistemini dəyişdirməsi bazara institusional investorların gəlməsinə, likvidlik və sabitliyin yüksəldilməsinə, investorları yeni maliyyə alətlərinin cəlbinə şirnikləndirir.



## Blokçeyn Tədris Mərkəzinin təlimləri kriptomədəniyyəti formalaşdırır

Bütün bunları nəzərə aldıqda Azərbaycanın investorları üçün də kriptobazara maraq artır, bəzi səhmdarlar qlobal maliyyə alətlərinə sərmayə etməyə meyl edir. Mövcud situasiyalar da ona işarə edir ki, nə qədər konservativ baxış olsa belə, artıq qlobal genişlənmə digər ölkələri, o cümlədən blokçeynə ehtiyatla yanaşan Azərbaycanın da bu sistemə inteqrasiyasını labüdləşdirir. Risk və təhdidlərə rəğmən, ölkəmizdə son illərdə kiberhücumlara qarşı dayanıqlı platformaların qurulması, xüsusilə də Kibertəhlükəsizlik Mərkəzinin yaradılaraq fəaliyyətə başlaması, davamlı olaraq müxtəlif sahələrin təmsilçiləri üçün kibertəhlükəsizlik təlimlərinin keçirilməsi blokçeyn texnologiyaları üzrə gözlənilən təhdidlərin qarşısını almağa imkan verir.

Müvafiq qurumlar blokçeyn alətlərinin maliyyə seqmentinə daxil olması üçün hələ zəruri ekosistemin yaradılmasını, çevik infrastrukturların, blokçeyn mədəniyyətinin formalaşması üçün təlimlərin keçirilməsini zəruri hesab edir. İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və kriptovalyuta və blokçeyn sahəsində tanınmış tədris platforması olan "Binance Academy"nin təşkilatçılığı, ASAN İnnovativ İnkişaf Mərkəzinin nəzdində fəaliyyət göstərən Blokçeyn Tədris Mərkəzinin dəstəyi ilə bir neçə ay əvvəl Bakıda keçirilən "CryptoA2Z" təlimləri də bu strateji məqsədə xidmət edir. Təlim proqramları kriptovalyuta və blokçeyn sahəsində biliklərini artırmaq istəyənlər, həmçinin bu sahəni yeni öyrənmək istəyənləri əhatə edir və məqsəd Azərbaycanda "Binance" ekosistemini tanıtmaq və genişləndirmək, eləcə də yerli dövlət qurumları ilə əməkdaşlığı gücləndirməkdir.

## Qlobal çağırışlar kriptovalyutanın ölkəmizdə tətbiqini aktuallaşdırır

Hazırda ölkəmizdə "Rəqəmsal hökumət"ə keçidin təmin edilməsi və "Hökumət buludu"nun yaradılması istiqamətində işlər dayanmadan davam etdirilir. Ölkəmizdə texnoloji inkişaf, rəqəmsallaşma, süni intellektin tətbiqi artır, dövlət qurumları,özəl sektor və cəmiyyətin bütün digər seqmentlərində rəqəmsallaşma dayanmadan irəliləyir. Vətəndaşlar hətta öz kripto hesablarını yaratmaqdadır. İnkişaf meyarları bir çox startapların da kriptobazara inteqrasiyasını sürətləndirməkdədir. Bir sözlə, biznesin qlobal səhm və investisiya icmaları ilə ünsiyyəti genişlənir, yeni maliyyə vektorlarına tələb ildən-ilə daha da çoxalır. Bütün bu amilləri nəzərə aldıqda, kriptovalyuta və blokçeynlərin ölkəmizin bazarına "müdaxiləsi" qaçılmaz olacaq.

Kriptovalyuta ilə bağlı ölkəmizdə yetkin təcrübə və zəruri biliklərin olmaması isə bu sahəyə maraq göstərənləri ciddi təhülkələrlə üzüzə qoya bilər. Onların blokçeyn texnologiyaları haqqında nüfuzlu ekspert və qlobal bazar iştirakçılarının təlim və tövsiyələrinə ehtiyacları var. Ölkəmizdə fəaliyyət göstərən Blokçeyn Tədris Mərkəzi bu istiqamətdə layihələr həyata keçirməklə, yerli biznesin xarici investorlarla əməkdaşlığını artırmağa çalışır.

***E. CƏFƏRLİ***

# Trampın "Amerika birinci" düsturu...

## ABŞ prezidenti xalqa müraciət etdi

Qlobal güc mərkəzlərindən biri sayılan ABŞ dünyanın siyasi-iqtisadi nizamının formalaşmasında xüsusi yeri və payı olan ölkələrdəndir. Rəsmi Vaşinqtonun istər xarici siyasət kursu, istərsə də iqtisadi proseslərə yanaşması beynəlxalq miqyasda önverici xarakter daşıyır. Son illərdə bu siyasi xətt müəyyən mənada destruktiv anlam daşımağa başlasa da, Donald Trampın 2024-cü il prezident seçkilərində yenidən ABŞ prezidenti seçilməsi ölkənin daxili və xarici siyasətində yeni inkişaf mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Bu qələbə təkcə siyasi hakimiyyətin dəyişməsi deyil, həm də Amerika cəmiyyətində uzun müddətdir davam edən ideoloji, sosial və iqtisadi mübahisələrin nəticəsi kimi ortaya çıxan yeni reallıqların təzahürü sayılır. Onun yeni prezidentlik dövrü ABŞ-da milli maraqların ön plana çəkilməsi, iqtisadi münasibətlər sisteminin gücləndirilməsi, eləcə də, sənaye və istehsalın ölkə daxilində bərpası, miqrasiya siyasətinin sərtləşdirilməsi kimi prioritetlərlə müşayiət olunur. Tramp administrasiyası qlobal sülh konsepsiyasını yenidən əsas siyasi xətt kimi təqdim etməklə qlobal proseslərdə daha praqmatik mövqe tutmağı hədəfləyir. Bu yanaşma Vaşinqtonun beynəlxalq təşkilatlarla münasibətlərinə, müttəfiqlərlə əməkdaşlıq modelinə və qlobal təhlükəsizlik arxitekturasına da ciddi təsir göstərir.



## Dünyanın heç vaxt görmədiyi iqtisadi inkişaf...

Yeri gəlmişkən, Donald Tramp yenidən prezident seçilməsinin 1 ilinin yekunları ilə bağlı xalqa müraciətində əsas prioritetlərini açıqlayıb. Tramp bildirib ki, birinci ilin əsas diqqət mərkəzində keçmiş ABŞ prezidenti Co Baydenin administrasiyasından miras qalmış ağır iqtisadi vəziyyəti düzəltmək və yenidən qurmaq olub. O, həmçinin sərhəd təhlükəsizliyinə milli təhlükəsizlik məsələsi kimi baxdığını və buna görə də bu sahədə çox güclü tədbirlər gördüyünü vurğulayıb. "Son 11 ay ərzində Vaşinqtona Amerika tarixindəki digər administrasiyalardan daha çox müsbət dəyişiklik gətirdik. Bu, misli görünməmiş bir şeydir", - deyə Tramp komandasının işini tərifləyib.

Ticarət siyasətindən danışan ABŞ prezidenti qeyd edib ki, ölkə tariflər vasitəsilə mövqeyini gücləndirib və bu addımlar sayəsində yenidən dünyada hörmət edilən bir millətə çevrilib: "Biz iqtisadiyyatı uçurumdan geri çəkirik".

Tramp xatırladıb ki, vəzifəyə başlayanda inflyasiya 48 ildə ən yüksək səviyyədə olub və bu da milyonlarla amerikalı üçün kəskin qiymət artımlarına və yaşayış xərclərinin artmasına səbəb olub. "Biz Amerikanı yenidən möhtəşəm edirik. 11 ay ərzində sərhədlərimizin təhlükəsizliyi təmin edilib, inflyasiya dayanıb. Əməkhaqqı artır, qiymətlər düşür. Ölkəmiz güclüdür. Amerikaya hörmət edilir və o, əvvəlkindən daha güclü şəkildə geri qayıdır. Dünyanın heç vaxt görmədiyi iqtisadi inkişafın astanasındayıq", - deyə Tramp administrasiyasının siyasətini "Amerika birinci" düsturu ilə təsvir edib.

## 1,4 milyondan çox ABŞ hərbçisinə 1776 dollarlıq bonus...

ABŞ prezidenti həmçinin ölkənin "tarixin ən pis ticarət razılaşmalarını" miras aldığını qeyd edib və administrasiyasının bunu dəyişdirdiyini vurğulayıb. "Biz iqtisadiyyatı uçurumdan geri çəkirik. Əvvəlki administrasiya və Konqresdəki müttəfiqləri trilyonlarla dollarlıq xəzinəmizi boşaldıb, qiymətləri əvvəllər görünməmiş səviyyələrə qaldırıblar. Mən bu yüksək qiymətləri azaltmaq üçün çox sürətlə hərəkət edirəm", - deyə Tramp bildirib. O, Bayden administrasiyası dövründə avtomobillərin, benzinin və yumurtanın qiymətlərinin artmasına nümunə göstərərək qeyd edib ki, bütün bu göstəricilər indi sürətlə azalır. Trampın sözlərinə görə, onun tətbiq etdiyi siyasət əmək haqqının artmasını da səbəb olub və uzun illərdən sonra ilk dəfə olaraq gəlirlər inflyasiyadan xeyli sürətlə artmağa başlayıb. Müraciətin ən diqqətçəkən məqamlarından biri isə ABŞ prezidentinin hərbçilər üçün bonusları elan etməsi olub. Belə ki, Milad bayramından əvvəl 1,4 milyondan çox ABŞ hərbçisi 1776 dollarlıq bonus çeki alacaq - bu rəqəm simvolik olaraq ABŞ-ın yaranması ilini təcəssüm etdirir.

## 18 trilyon dollarlıq investisiya...

Əmək bazarına gəldikdə isə, Tramp bildirib ki, vəzifəyə başladığı vaxtdan ötən dövrdə özəl sektorda yaradılan yeni iş yerləri 100 faizlik artım təşkil edir. O, həmçinin ABŞ-a rekord səviyyədə - 18 trilyon dollarlıq investisiya cəlb etdiyini vurğulayıb: "Bu uğurun böyük bir hissəsi tariflərin sayəsindədir. Ən sevdiyim söz tarifdir. Onilliklərdir ki, digər ölkələr bundan bizə qarşı uğurla istifadə edirlər, amma bu, keçmişdə qalıb".

Tramp qeyd edib ki, ABŞ tarixində ən böyük vergi endirimlərinin nəticələri gələn ilin əvvəlində görünəcək və qarşıdan gələn vergi mövsümü bu tədbirlər və tarif siyasəti sayəsində "tarixdə ən böyük vergi geri qaytarma mövsümü" olacaq. ABŞ prezidenti həmçinin dərman qiymətlərini 600 faizə qədər azaltmaq məqsədi daşıyan əczaçılıq şirkətləri ilə danışıqlardan danışaraq dərmanların qiymətinin əhəmiyyətli dərəcədə azaldılacağını vurğulayıb. O, həmçinin enerji xərclərinin azaldılmasını prioritet kimi qeyd edərək, ikinci müddətinin ilk günündə ölkənin əksər bölgələrində benzin qiymətlərinin düşməsinə səbəb olan enerji ilə bağlı fövqəladə vəziyyəti elan etdiyini xatırladıb.

Tramp tezliklə yeni Federal Ehtiyat sədrinin adını açıqlayacağını da deyib. "Tezliklə faiz dərəcələrinin əhəmiyyətli dərəcədə aşağı salınmasının vacibliyinə inanan yeni Fed sədrini təqdim edəcəyəm. Yeni ilin əvvəlində ipoteka ödənişləri daha da aşağı olacaq. Bunu görəcəksiniz. Amerika tarixinin ən uğurlu mənzil islahatı planlarından bəzilərini açıqlayacağam", - deyə o bildirib.

## ABŞ-a dəniz və quru yolu ilə daxil olan narkotiklərin həcmi 94 faiz azalıb

ABŞ prezidenti əvvəlki administrasiyanın ən ciddi səhvlərindən birinin sərhəd təhlükəsizliyinin təmin edilməməsi olduğunu deyib: "Bayden administrasiyasının ölkəmizə etdiyi ən böyük pislik "sərhəd işğalıdır". Sərhədlərimiz açıldı və nəticədə 25 milyon nəfərlik "ordu" ölkəmizə hücum etdi. Onların arasında narkotik satıcıları, terror dəstə üzvləri və hətta qatillər də var idi. Bayden administrasiyası buna icazə verdi - bunun bir daha təkrarlanmasına heç vaxt icazə verilməyəcək".

Tramp prezidentliyi dövründə qanunsuz sərhəd keçidlərinin tam bağlandığını bildirib və bu sahədəki sərt siyasəti davam edəcəyini vurğulayıb. "İlk gündən cənub sərhədindəki axının qarşısını almaq üçün dərhal tədbirlər gördüm. Son yeddi ayda ölkəmizə bir dənə də olsun qanunsuz immiqrant daxil olmayıb. Co Baydenin sərhədi bağlamaq üçün Konqresin aktına ehtiyacımız olduğunu dediyini xatırlayırsınız? O, həmişə məsuliyyəti Konqresə ötürürdü. Sonda məlum oldu ki, heç bir qanuna ehtiyac yoxdur - bizə sadəcə yeni prezident lazımdır", - deyə Ağ Ev rəhbəri bildirib.

Tramp həmçinin dəniz və quru yolu ilə ABŞ-a daxil olan narkotiklərin həcminin 94 faiz azaldığını bildirib.

## "3000 ildən sonra sülh gətirdim"...

Tramp çıxışında xarici siyasət kursuna daha az yer verib - o, yalnız bir dəfə xarici siyasətə toxunaraq Qəzzada atəşkəsdən bəhs açıb. ABŞ prezidenti bəyan etdi ki, "Mən Amerikanın gücünü bərpa etdim, 10 ayda 8 müharibəni həll etdim, İranın nüvə təhdidini aradan qaldırdım və Qəzzadakı müharibəyə son qoydum. Beləliklə, 3000 ildən sonra ilk dəfə olaraq Yaxın Şərqə sülh gətirdim. Həm diri, həm də ölü girovların azad edilməsini təmin etdim".

***P.İSMAYILOV***

# Təsdiqləndi

## Avropa Rusiya qazından imtina edir

Avropa Parlamentinin deputatları əvvəllər Avropa İttifaqı (Aİ) Şurası ilə razılaşdırılmış Rusiya qazının alışının tədricən dayandırılması haqqında sazişi təsdiqləyiblər. Bu barədə Strasburqda həmməruzəçilər İnes Vaydere və Villa Niinistyo bildiriblər.

Plenar iclasda 500 nəfər razılaşmanın qəbul edilməsinin tərəfdarı olub, 120 deputat sənədin əleyhinə səs verib, 36 nəfər isə bitərəf qalıb.

İ.Vayderenin sözlərinə görə, qərar Avropanın Rusiya qazından asılılığından birdəfəlik uzaqlaşmasına dair aydın siqnal göndərir. Bu, sadəcə enerji və ya ticarət məsələsi deyil, təhlükəsizlik siyasəti və mənəvi seçim məsələsidir.

### "Qoca qitə"nin enerji siyasətində dönüş nöqtəsi

Avropanın şimal qonşumuzun qazından imtina etməsi artıq dörd ildir ki, davam edən Rusiya-Ukrayna müharibəsi səbəbindəndir. Bu müharibədə Avropa İttifaqı Kiyevin tərəfindədir. Bunun təsdiqi olaraq Aİ-dən davamlı olaraq Ukraynaya siyasi, iqtisadi və hərbi dəstək gəlir. Eyni zamanda, Ukraynanın Aİ tərəfindən dəstəklənməsi hibrid səciyyə daşıyır. Belə ki, Brüssel Kiyevin müqavimət gücünü artırmaq məqsədilə Moskvanın müharibəni davam etdirmək imkanlarını zəiflətmək taktikasından istifadə edir. Bu məqsədlə indiyədək Avropa İttifaqı tərəfindən Rusiyaya qarşı geniş əhatə dairəsinə malik olan 19 sanksiya paketi tətbiq olunub və yenisinin hazırlanması da gündəmdədir.

Avropanın Rusiyadan enerji asılılığına tədricən son qoyulması da Aİ-nin Moskvaya təzyiq siyasətinin tərkib hissəsidir və deyə bilərik ki, sanksiyalardan daha sərt addımdır. Məlumdur ki, Rusiya büdcəsinin formalaşmasında neft-qaz gəlirlərinin xüsusi çəkisi var. Nəhəng müharibə maşını da böyük dərəcədə məhz bu gəlirlər hesabına işləyir. Diqqətçəkən məqam ondan ibarətdir ki, müharibədən əvvəlki mərhələdə Avropa Rusiya neft və qazının əsas alıcıları sırasında idi. Belə ki, müharibə başlayanadək gündəlik 5 milyon barel neft ixracatı həyata keçirən Rusiya bu həcmin 70 faizini ABŞ və Avropa bazarlarına ünvanlayırdı. "Qoca qitə"nin neftə olan tələbatının ödənilməsində şimal qonşumuz 25 faiz paya malik idi. Rusiya Avropa üçün həm də ənənəvi olaraq optimal qaz təchizatı mənbəyi sayılırdı. İşlək infrastruktur qurulmuşdu, qiymətlər də əlçatan idi. Statistik məlumatlara görə, müharibədən əvvəlki mərhələdə Rusiya Avropa İttifaqı məkanına ildə 150-190 milyard kubmetr qaz ixrac etməklə qitənin təbii qaza olan tələbatının 40-45 faizə qədərini qarşılayırdı. Bütövlükdə, "qoca qitə"nin təbii qaza illik tələbatı təxminən 400 milyard kubmetrə bərabərdir. Bu həcmdə istehlakın 90 faizi idxal hesabına qarşılanır.

Son 4 ildə Aİ ölkələri Rusiyadan enerji məhsullarının idxalını mərhələli azaltsa da, buna tam şəkildə son qoya bilməyib. Verilən məlumatlara görə, Aİ-nin Rusiyadan LNG və boru xətti ilə qaz idxalı 45 faizdən 13 faizə, kömür idxalı 51 faizdən sıfıra, xam neft idxalı isə 25 faizdən 2 faizə enib. İdxal həcmləri əhəmiyyətli dərəcədə azalsa da, indiyədək Avropa məkanından Rusiyaya maliyyə ödənişləri davam edib.

Avropa Parlamentində təsdiqlənən saziş buna tamam son qoymağı hədəfləyir. Avropalı siyasətçilər o qənaətdədirlər ki, Moskvaya hər hansı bir formada maliyyə tranşlarının edilməsi qitənin dolayısı ilə müharibədə iştirakı anlamına gəlir və Avropa bu strateji səhvini düzəltməlidir. Latviyalı deputat qeyd edib ki, Ukraynada genişmiqyaslı müharibə başlayandan bəri Aİ Rusiyaya qazıntı yanacaqları üçün 216 milyard avrodan çox pul ödəyib. Yenə də gündəlik ödənişlər təxminən 40 milyon avro təşkil edir ki, bu da Rusiyanın Ukraynadakı hərbi əməliyyatlarının maliyyələşdirilməsinin davam etməsi deməkdir. "Avropa Rusiyaya Ukraynaya yardım olaraq ayırdığımızdan daha çox pul ödəyib. Buna görə bugünkü səsvermə Avropa İttifaqının enerji siyasətində dönüş nöqtəsidir", - deyə İ.Vaydere vurğulayıb.

### Avropanın hansı seçimləri var?

Bəs Rusiya yanacağından imtina fonunda Avropanın enerji təhlükəsizliyi necə həll olunacaq? Sualın cavabı olaraq bildirək ki, indiyədək Avropanın Rusiyadan enerji asılılığına son qoymağı hədəfləyən xilas planı hazırlanıb. Təchizat mənbələrinin diversifikasiya edilməsi, enerji keçidi və s. bu plana daxildir. "Eyni zamanda, etibarlı tərəfdaş ölkələr üçün qaz idxalını asanlaşdırdıq. Onlar bürokratik əngəllərlə üzləşməməlidirlər. Bu, dost ölkələrin Avropaya lazımi qaz tədarük etməsinə yol açacaq", - deyə İ.Vaydere bildirib.

O əlavə edib ki, parlament Rusiya neftinin idxalını da eyni dərəcədə qadağan etmək istəsə də, üzv dövlətlər buna hazır deyildilər. Ancaq 2027-ci ilin sonundan etibarən neftdən imtina ilə bağlı qanunvericilik təklifi ilə bağlı öhdəliklər var, parlament də nüvə enerjisi ilə bağlı təklif gözləyir. Eyni zamanda, istisna olaraq, Macarıstan və Slovakiya ən geci 2026-cı ilin oktyabrın sonuna qədər Rusiyadan qaz idxalını dayandırmalıdırlar.



### Sanksiyalardan daha güclü qərar

Avropa parlamentinin təsdiqlədiyi sazişi şərh edən deputat V.Niinistyo sənədi "sanksiyalardan daha güclü qərar" kimi səciyyələndirib. Həqiqətən də, Aİ-nin Rusiyadan enerji asılılığını azaltması fonunda bu ölkənin enerji gəlirlərindəki dinamikanın əhəmiyyətli dərəcədə zəiflədiyi müşahidə olunur. Rusiya Maliyyə Nazirliyi ölkənin neft və təbii qazdan əldə etdiyi gəlirlərin bu ilin noyabrında ötən ilin eyni dövrü ilə müqayisədə 33,8 faiz azalaraq 531 milyard rubl (təxminən 6,9 milyard dollar) olduğunu açıqlayıb. Nazirlik bildirib ki, yanvar-noyabr aylarında neft və təbii qaz gəlirləri 2024-cü ilin eyni dövrü ilə müqayisədə 21,4 faiz azalaraq 8 trilyon 29 milyard rubla düşüb. Bundan əlavə, noyabr ayında gəlirlərin əvvəlki aya nisbətən 40,2 faiz azaldığı da diqqətə çatdırılıb.

Avropa ölkələrinin Rusiyanın neft-qaz sektoruna tətbiq etdiyi sanksiyalar fonunda rəsmi Moskva enerji ixracatı üçün xüsusilə Asiyada olmaqla alternativ bazarlarda mövqeyini gücləndirməyə çalışır. Lakin alternativlər elə də çox deyil. Rusiyanın ixrac coğrafiyasının daralması fonunda Çin, Hindistan kimi dövlətlər bu ölkədən enerji məhsullarını daha ucuz qiymətə almaq istəyirlər. "The Moscow Times" nəşrinin Rusiya İqtisadi İnkişaf Nazirliyinin məlumatlarına istinadən yazdığına görə, bu il Moskva mavi yanacağı Çinə təqribən 40 faiz endirimlə satır. Nazirliyin baza proqnozunda qeyd edilir ki, 2026-2028-ci illərdə Rusiya qazının Türkiyə və Avropa ölkələrinə tədarükü üçün orta qiyməti 1000 kubmetrə görə 356,7 dollar təşkil edəcək. Çin üçün isə növbəti üç ildə orta proqnoz 243,6 dollar təşkil edəcək ki, bu da Avropaya tədarüklərlə müqayisədə 31,7 faiz aşağıdır. Rusiya həmçinin Çinə neft ixracının qiymətlərində rekord həcmdə endirimlər edib.

*Mübariz ABDULLAYEV*

# Avropada strateji təhlükəsizlik: Almaniyanın hərbi gücünün yüksəlişi fonunda

Almaniyanın Avropada hərbi gücünün artması məsələsi uzun tarixi və strateji kontekstdə dəyərləndirilməlidir. İkinci Dünya müharibəsindən sonra bu ölkənin hərbi potensialı ciddi şəkildə məhdudlaşdırıldığından Almaniya son vaxtlara qədər dünya arenasında iqtisadi baxımdan nəhəng, hərbi baxımdan isə cırtdan ölkə kimi tanınırdı. "Potsdam" və "Versal" razılaşmaları çərçivəsində Almaniyanın peşəkar ordusu ləğv edilmiş, silah sənayesi məhdudlaşdırılmış, ölkədə hərbi modernləşmə faktiki olaraq dayandırılmışdı. Bunun nəticəsində Almaniya əsas diqqətini iqtisadi sahəyə yönəldərək Avropa Birliyi içində iqtisadi lider mövqeyinə yüksəlmişdi. Son 80 il ərzində Almaniya sənaye və texnologiya sahəsində böyük inkişaf əldə etsə də, hərbi gücünü məhdud səviyyədə saxlamış, müdafiə siyasətində NATO və digər müttəfiqlərə güvənmişdi. Bu uzunmüddətli yanaşma Almaniyanın regional təhlükəsizlikdə rolunu iqtisadi və diplomatik təsir vasitələri ilə məhdudlaşdırmışdı.

Lakin 2022-ci ildə Ukraynada başlanan müharibə Avropada təhlükəsizlik mühitini kökündən dəyişdi, bir sıra ölkələrlə yanaşı, Almaniyada da hərbi modernləşmə və təhlükəsizlik məsələlərini gündəmə gətirdi. Ukrayna müharibəsi alman ictimai-siyasi dairələrində narahatlıq yaratdı, ölkənin NATO öhdəliklərinin icrası və Avropanın müdafiəsində rolu aktiv müzakirələrə səbəb oldu. Almaniyanın gələcəkdə Avropanın ən güclü ordusuna malik olub-olmaması artıq sadəcə konseptual deyil, strateji zərurət kimi qiymətləndirilir. Bu prosesdə NATO-dakı öhdəliklər, hərbi xərclərin artırılması tələbi, ABŞ və digər müttəfiqlərin Almaniyadan gözləntiləri, eləcə də Rusiya amilinin yaratdığı regional risk vacib rol oynayır. ABŞ geosiyasi baxımdan Avropanın təhlükəsizliyində hələ də əsas aktor olsa da, Ukrayna müharibəsi və Çin-Rusiya faktorları onun resurs bölgüsünü məhdudlaşdırıb. Bu, Almaniyanın Avropada müstəqil müdafiə siyasətini formalaşdırmaq ehtiyacını artırır və hərbi modernləşməni zəruriləşdirir.

Rusiya faktoru Almaniyanın strateji planlaşdırmasında mühüm rol oynayır. İkinci Dünya müharibəsində Sovet İttifaqı Avropanı faşizmdən xilas etmişdisə də, müasir geosiyasi kontekstdə Rusiyanın hərbi fəaliyyəti Almaniya üçün strateji risklər yaradır. Avropada artan təhlükəsizlik narahatlığı Almaniyanı ordusunu gücləndirməyə və NATO çərçivəsində daha məsuliyyətli olmağa sövq edir. Almaniya yalnız Avropanın şimal-şərq sərhədlərini qorumaqla kifayətlənmir, həm də NATO-nun ümumi müdafiə strategiyasında kritik rol oynayır, hərbi texnologiya və resurslarını modernləşdirərək, regional balansın qorunmasına töhfə verir. Almaniyanın iqtisadi imkanları və sənaye gücü hərbi modernləşmənin maliyyə təminatı və texnologiya dəstəyi baxımından ciddi üstünlük yaradır. Bu ölkənin silahlı qüvvələrinin gələcəkdə Avropanın ən güclü ordusuna çevrilmə perspektivi realdır, lakin bu, beynəlxalq öhdəliklərin, regional təhlükəsizlik təhdidlərinin və iqtisadi imkanların balanslı şəkildə idarə edilməsindən asılı olacaq. Hərbi modernləşmə yalnız ordunun sayını və texnologiyasını yox, həm də regionun strateji müstəqilliyini və NATO-nun etibarını artırmaq məqsədi güdür.



Bu baxımdan Almaniya uzunmüddətli perspektivdə Avropanın təhlükəsizlik arxitekturasında həm siyasi, həm də hərbi lider rolunu oynaya bilər. ABŞ-ın Sakit okean və Hind-Sakit okean strategiyasına fokuslanması Avropanın öz müdafiəsini gücləndirməsinin vacibliyini önə çəkir. Qlobal hərbi-strateji vəziyyət olduqca mürəkkəb bir tablo təqdim edir, burada ABŞ, Çin, Rusiya və Avropanın rolu bir-birinə bağlıdır. Çin və Rusiyanın Sakit okean boyunca sahil xətti təxminən 52 min kilometrdir. Bu fakt regiona hərbi nəzarəti mürəkkəbləşdirir: ABŞ və ya müttəfiqlərinin bu ölkələrin təsir dairəsini daraltmaq cəhdləri sahil xəttinin uzunluğu, hərbi infrastrukturun çoxsaylı bazalara bölünməsi və donanmaya aid strateji məkanların mövcudluğu səbəbindən çətinləşir. Çin aktiv şəkildə dəniz qüvvələrini gücləndirir, Hainan, Fucian, Quanqdonq və Qanzu ərazilərində yeni gəmilər üçün doklar qurur, Cənubi-Çin dənizində süni adalar tikir, bu bölgələrdə mülki nəzarətlə hərbi nəzarəti birləşdirir. Eyni zamanda Rusiya donanması Arktikada Şimal donanması, Vladivostokda Sakit okean donanması, Kaliningradda Baltik donanması və Novorossiyskdə Qara dəniz donanması kimi dörd ayrı bölgəyə bölünüb. Belə geniş ərazidə yerləşmiş donanma ABŞ üçün hər hansı blokada və ya strateji təzyiq əməliyyatını son dərəcə mürəkkəbləşdirir. Çin və Rusiyanın birgə hərbi-dəniz fəaliyyətləri faktiki olaraq ABŞ-ın Sakit okeanda tam üstünlüyünü əngəlləyir. ABŞ indi resurslarını Şimali və Cənubi Hind-Sakit okean bölgələrinə bölərək diqqətini buraya cəmləməyə məcburdur, bununla da Yaponiya, Cənubi Koreya, Filippin, İndoneziya və AUKUS ölkələrinin (AUKUS - Avstraliya (Australia), Böyük Britaniya (United Kingdom) və ABŞ (United States) ölkələrinin hərbi və strateji əməkdaşlıq üzrə üçtərəfli razılaşmasıdır) hərəkətlərini də nəzərə alır.

Atlantik tərəfdə isə fərqli bir çağırış ortaya çıxır. ABŞ-ın Avropaya hərbi diqqətinin nisbətən azaldığı bir şəraitdə Almaniya Avropanın "kölgə" təhlükəsizlik təminatçısı rolunu öz üzərinə götürür. Son illərdə Almaniyanın müdafiə büdcəsi 100 milyard avronu keçib, hava qüvvələri, tanklar və digər hərbi texnika modernləşdirilir, ordunun sayı isə 260 min nəfərə çatdırılıb. Bu, ölkənin Avropanın təhlükəsizliyini gücləndirmək və NATO daxilində strateji boşluğu doldurmaq niyyətindən xəbər verir. Rusiyanın təzyiqləri və mürəkkəb geosiyasi mühit Almaniya və Fransanın üzərinə xüsusi strateji məsuliyyət yükü qoyur, bu da tarixi və cari təhlükəsizlik faktorlarını nəzərə alaraq ordunun modernləşdirilməsini zəruri edir.

Ümumilikdə, Çin və Rusiyanın geniş sahil xətti və güclü dəniz infrastrukturu, eləcə də Almaniyanın hərbi gücünün artması qlobal güc balansını dəyişdirir. ABŞ indi Sakit okean və Atlantik regionlarında resurslarını diqqətlə bölüşdürməyə məcburdur, Avropa isə öz müdafiəsini və strateji müstəqilliyini gücləndirməyə çalışır. Bu proses göstərir ki, Avropanın strateji avtonomiyası, Almaniyanın hərbi potensialının yüksəlməsi və Çin-Rusiya dəniz siyasətinin inkişafı növbəti onilliklərdə qlobal güc balansını müəyyən edəcək.

Avropada vahid hərbi qurum yaratmaq ideyası çox mürəkkəb tarixi, mədəni və sosial faktorlara bağlıdır. Tarixi baxımdan Avropanın müxtəlif bölgələrində fərqli dini məzhəblər və etnik qruplar mövcud olub - protestantlar, katoliklər, pravoslavlar. Əsrlər boyu bunların bir-birinə düşmən münasibəti formalaşıb. Hətta dil və mədəniyyət fərqləri də regional birliyi çətinləşdirir: məsələn, Belçikada bir tərəf flamand, digər tərəf fransız dilində danışır. Bu fərqlərə baxmayaraq, 1815-ci ildə keçirilmiş Vyana konqresində Avropa dövlətləri bir araya gələrək birlik yaratmağa qərar vermişdi. Səbəb isə ortaq düşmən - Osmanlı imperiyası və islam faktoru təhlükəsi idi. Bu, həm də Avropa tarixində, eləcə də Yaxın Şərqdə strateji maraqların formalaşmasına təsir göstərdi.

Müasir dövrdə isə Avropanın vahid ordusu ideyası daha mürəkkəb və problematikdir. Fransa və Almaniya bu məsələni ciddi şəkildə müzakirə edir. Məsələn, Fransa prezidenti Emmanuel Makron bəyan etdi ki, Avropa öz ordusunu yaradacaq, lakin ABŞ-ın təzyiqi altında bu təşəbbüs məhdudlaşdırıldı. Vəziyyət göstərir ki, Avropanın ABŞ-ın iştirakı olmadan müstəqil təhlükəsizlik arxitekturası qurması çətin məsələdir. Bundan əlavə, Avropa daxilində digər problemlər də var: radikal sağçı partiyaların, məsələn, Almaniyada AFD, Fransada isə Le Penin güclənməsi, neonasist meyillərin aktivləşməsi, miqrasiya böhranının həll edilməməsi və enerji asılılığı kimi faktorlar Avropanın birlik və təhlükəsizliyinə təsir göstərir. 2022-ci ildə başlanan Ukrayna müharibəsi qitədə real narahatlıqları daha da artırdı; enerji embarqosu və resurs çatışmazlığı kimi məhdudiyyətlər Avropanın öz təhlükəsizliyini təmin etmək imkanını məhdudlaşdırdı. Bu baxımdan Fransa və Almaniyanın birgə təhlükəsizlik təşəbbüsləri mütləq xarici dəstək, koordinasiya və strateji tərəfdaşlıq tələb edir. İqtisadi çətinliklər, enerji asılılığı, hərbi zəiflik və sosial radikallaşma Avropada vahid hərbi-siyasi arxitekturanın formalaşmasını çətinləşdirir.

Belə şəraitdə Avropa üçün əsas strateji tərəfdaş olaraq Türkiyə diqqət mərkəzinə gəlir. NATO üzvü kimi Türkiyə uzun illər strateji əhəmiyyətini qoruyub saxlayıb, Avropanın təhlükəsizliyində indi də açar rolu oynayır. Türkiyənin mövqeyi göstərir ki, Avropa ABŞ-dan tam müstəqil olmaq istəsə belə, Türkiyə ilə əməkdaşlıq etmədən bunu həyata keçirmək çətindir. "Qoca qitə" öz təhlükəsizlik arxitekturasını yenidən qurarkən Türkiyənin rolunu nəzərə almalı, onunla hərbi və strateji əməkdaşlıq qurmalıdır.

Bir sözlə, Avropada vahid ordu və təhlükəsizlik sistemi yaratmaq hələlik mürəkkəb və çoxşaxəli problemdir. Tarixi fərqlər, sosial və mədəni bölünmələr, daxili radikallaşma, miqrasiya və enerji problemləri, ABŞ və Türkiyənin rolu bu prosesin formalaşmasına birbaşa təsir göstərir. Bu məsələ hələlik Avropa üçün strateji sual kimi qalır: gələcəkdə vahid, effektiv və müstəqil hərbi qurum yaratmaq mümkün olacaq, yoxsa region fərqli ittifaqlar və tərəfdaşlıqlar arasında parçalanmış vəziyyətdə mövcudluğuna davam edəcək?



*Kəramət QƏNBƏROV,*
*beynəlxalq hüquq üzrə ekspert*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Rənglər dünyasının əbədi sakini...

## Mikayıl Abdullayev fırçası ilə möcüzələr yaradıb



Əli fırça tutandan son nəfəsinə qədər yalnız istedadına, zəhmətinə güvənmişdi. Qazandığı fəxri adlar, titullar arasında ona ən çox yaraşanı isə kövrək qəlbli, zərif duyğulu bir insan olması idi... Hərtərəfli biliyə malik sənətkar olub. Demək olar ki, təsviri sənətin bütün sahələrində çalışıb: dəzgah rəngkarlığı, qrafika, teatr dekorasiyası, monumental rəngkarlıq və s. Bu sahələrin hər birində özünəməxsus yaradıcılıq dəst-xəttinə uyğun, bitib-tükənməyən zərif sənətkar duyğularının ifadəsi olan əsl sənət inciləri yaradıb.

Mikayıl Abdullayev Azərbaycan rəssamları arasında yeganə şəxslərdəndir ki, öz yaradıcı arzularını təsviri sənətin bütün sahələrində həyata keçirə bilmişdi. M.Abdullayev kimi ikinci bir fırça ustası tapılmaz ki, öz yaradıcılığı ilə klassik və müasir Azərbaycan ədəbiyyatına möhkəm tellərlə bağlı olsun. O, dahi Nizamidən tutmuş, yazıb-yaradan digər şair və nasirlərimizə qədər bir çox sənətkarın portretini yaratmış, əsərlərinə illüstrasiyalar çəkmişdi.

### “Fərhadın məşqi” necə yarandı?

“Onun əlində fırça sanki dirijor çubuğunu xatırladırdı. O, fırçanı hərəkət etdirəndə kətan üzərində rənglər, boyalar insanın ruhuna sakitlik gətirən harmonik melodiyalar kimi süzülüb axırdı”, - Bəstəkar Fərhad Bədəlbəyli Mikayıl Abdullayevi belə təsvir edir.

Rəssamın zəngin əsərləri içərisində diqqəti cəlb edən portretlərdən biri də Xalq artisti, professor Fərhad Bədəlbəylinin portretidir. Rəssam pianoçunun barmaqlarını canlı kimi təsvir etməyə nail olmuş, bu da öz növbəsində tabloya yüksək ifadəli ekspressiya bəxş etmişdi. Fərhad Bədəlbəyli o günləri belə xatırlayır: “Mikayıl Abdullayev 20-ci əsrin ən böyük rəssamlarından biri idi. Mən deyərdim ki, əsl klassik və real akademik idi. Sənətkarın işləri nəinki Azərbaycanda, dünyanın bir çox ölkələrində tanınırdı. Mikayıl müəllimlə atam yaxın dost idilər. Zağulbada istirahət edərkən Mikayıl müəllim də bizə tez-tez gələrdi. O söhbətlər bu günə kimi mənim yadımdadır. Taleyimdən çox razıyam ki, böyük insanla təmasda olmuşam. Hər zaman tablosunu özü ilə gətirərdi. Birdən dedi ki, gəl mən səni məşq edərkən çəkim. Mən piano çaldım, o da çəkdi. Nəticədə “Fərhadın məşqi” adlı portret yarandı. Hazırda həmin portret muzeydə qorunub saxlanılır. Mənim üçün böyük fəxrdir ki, böyük ustadın fırçasının məhsulu olan portretim muzeydə sərgilənir”.





### Rəngkarlığın şah əsəri “Nizami” metrosundadır

Rəssamın Bakı metropoliteninin “Nizami” stansiyasını bəzəyən 18 mərmər tağda yerləşdirilmiş N.Gəncəvi “Xəmsə”sinə çəkdiyi mozaikalar Azərbaycan təsviri sənətində monumental rəngkarlığın şah əsərləri hesab oluna bilər. Bakı metrosunun “Nizami” stansiyasının yeraltı muzeyə çevrilməsi Mikayıl Abdullayevin təxəyyülü sayəsində baş verdi.

Mikayıl Abdullayevin yaradıcılığının mayası doğma vətəni Azərbaycan və onun gözəllikləri idi. Rəssamın dilindən söylənən “Azərbaycan, doğma vətənim. Mən sənin doğma balan, aşiqin kimi səni, sənin gözəlliyini kətan üzərində vəsf etməkdən yorulmuram, doymuram”, - fikirləri də bunu təsdiqləyir.

### Yaradıcılığında xarici ölkə motivləri də var

Görkəmli sənətkarın yaradıcılığında xarici ölkə motivləri də var. 1956-1971-ci illərdə Hindistan, Əfqanıstan, Macarıstan, Polşa, İtaliya və s. ölkələrə səfər zamanı çəkdiyi rəsmlər silsiləsində milli və fərdi xarakteristika, plastika, kolorit zənginliyi əsas yer tutur. Əsərləri Paris, London, Praqa, Sofiya, Varşava, Qahirə, Belqrad və s. şəhərlərdə nümayiş olunub, Leypsiq, Berlin, Dehli, Madrid, Milan, Kioto şəhərlərində fərdi sərgisi keçirilib.

Dekabrın 19-u görkəmli rəssamın doğum günüdür. Həyatda olmasa da, onun işıqlı xatirəsi xalqımızın qəlbində yaşayacaq, rənglər dünyasının əbədi sakini kimi daim xatırlanacaq...

*Yeganə BAYRAMOVA*

# Ehtiyacı olanlara kömək...

Ehtiyac içində olan insanlara yardım əlini uzatmaq sadəcə mərhəmət deyil, həm də insanlıq borcu sayılır. Yoxsullara kömək etmək sanki cəmiyyət üzvlərinin vicdanını və etibarını ölçən bir “testdir”. Bu gün dünyamızda milyonlarla insanın yalnız gündəlik yaşamaq üçün lazım olan əsas şeylərə-yeməyə, suya, mənzilə, tibbi yardıma ehiyacı var.

Təxmini hesablamalara görə, dünya əhalisinin 15 faizi, başqa sözlə, 250 milyonu uşaq olmaqla 1 milyarda yaxın insan yoxsulluqdan əziyyət çəkir. Əsasən, xammal bazası olan inkişaf etməmiş ölkələrdə və təbii resurslar cəhətdən kasad ölkələrdə müşahidə olunan yoxsulluğun müxtəlif səbəbləri var.

Məlumdur ki, dünyanın bir çox ölkələrində yoxsulluğun aradan qaldırılması üçün dövlət və beynəlxalq proqramlar həyata keçirilir. Eyni zamanda, sahibkarlar, müxtəlif dini və xeyriyyə ictimai təşkilatları tərəfindən yoxsullara yardım göstərilir. Bu günə qədər BMT tərəfindən yoxsulluğun kökünün kəsilməsi məqsədilə bir neçə proqram qəbul edilib. İlk proqramın icrasına 2000-ci ilin əvvəlində başlanılsa da, hələ yoxsulluq həddində yaşayanların sayı azalmır.

### Yoxsulluğun hesablanma metodologiyası...

Qeyd edək ki, bütün dünyada yoxsulluq səviyyəsi Dünya Bankının təklif etdiyi metodologiya əsasında müəyyənləşdirilir. Bu metodologiyaya əsasən, gündəlik gəliri 2 dollardan aşağı olanlar yoxsul, 1 dollardan aşağı gəliri olanlar isə ifrat yoxsul hesab olunur. Lakin bir çox hallarda bu metodologiya düzgün hesablama üçün kifayət etmir. Çünki elə ölkələr var ki, orada orta aylıq əmək haqqı 60 dollardan aşağıdır. Amma elə ölkələr var ki, orada 60 dollar heç gündəlik tələbatı ödəmir.

### 8 ildə 300 milyon insan yoxsulluqdan ölüb

Yeri gəlmişkən, 19 dekabr Beynəlxalq Yoxsullara Yardım Günüdür. Bu gün 1995-ci ildə BMT tərəfindən təsis edilib. Məlumata görə, planetin bütün əhalisinin təxminən dörddəbir hissəsi 20-ci əsrdə dilənçi vəziyyətində olub. Aparılan araşdırmalar göstərir ki, 1999-cu ildən 2007-ci ilədək olan dövrdə yoxsulluqdan 300 milyon nəfər ölüb. Hətta iki dünya müharibəsi belə ümumilikdə bu qədər insanın həyatına son qoymayıb.




### Dünyanın ən yoxsul ölkələri...

“Global Finance” agentliyi dünyanın ən yoxsul ölkələrinin reytinqini açıqlayıb. Reytinq cədvəli adambaşına düşən ÜDM-nin həcminə görə tərtib olunub. Reytinq cədvəlində dünyanın ən kasıb ölkəsi kimi göstərilən Cənubi Sudan (adambaşına düşən ÜDM-nin həcmi 455 dollar) 2011-ci ildən bəri zorakılıqla üzləşib. Sosial parçalanmalar, bərabərsizlik, korrupsiya və müharibə burada vəziyyəti daha da pisləşdirib. Bu il Cənubi Sudan əhalisinin 60 faizindən çoxunun - 9 milyona yaxın insanın humanitar yardıma ehtiyacı olacaq.

Dənizə çıxışı olmayan kiçik Burundi ən yoxsul ölkələr arasında ikinci yerdədir. Ölkə təbii sərvətlərə malik deyil və 1993-2005-ci illərdə davam edən vətəndaş müharibəsindən əziyyət çəkib. Üçüncü yerdə Mərkəzi Afrika Respublikasıdır. Belə görünür ki, qızıl, neft, uran və almazla zəngin olan bu ölkədə nədənsə çox kasıb insanlar yaşayır və 10 il ərzində dünyanın ən kasıb dövlətləri sırasında yer alıb.

Dünyanın ən yoxsul ölkələrinin ilk onluğuna Konqo Demokratik Respublikası, Mozambik, Niger, Malavi, Liberiya, Madaqaskar və Yəmən də daxildir.

### Kasıb ölkələr müasir texnologiyadan uzaqdır...

Yoxsulluq coğrafiyasına diqqət yetirdikdə belə bir məqam nəzərə çarpır: heç bir təbii resursu olmayan ölkələri bir kənara qoysaq, əksər belə ölkələr ya kənd təsərrüfatı, ya da hasilat sənayesi üzrə ixtisaslaşıblar və müasir texnologiyalar əldə etməyə çətinlik çəkirlər. Yoxsulluğun da bir çox hallarda təbii və süni fəlakətlərin nəticəsi olaraq ortaya çıxması bunu deməyə əsas verir. Belə bir ixtisaslaşmada məhz dünyanın inkişaf etmiş ölkələri maraqlı görünür.

Müasir texnologiyalara malik dövlətlər bu texnologiyanın başqa ölkələrə verilməsində maraqlı olmur. Mütəmadi olaraq dünyanın iri dövlətləri kasıb ölkələrə kredit verir. Kreditlərin strukturuna baxdıqda isə məlum olur ki, bu kreditlər yalnız müəyyən əmtəələrin alınmasına verilir, məsələn ağır sənaye məhsulları. Bu əmtəələr də kredit verən iri dövlətlərdə istehsal olunur. Bir sözlə, onların verdikləri pullar faizlə birlikdə özlərinə qayıdır. Faktiki olaraq, özləri öz şirkətlərinə vəsait verərək dövlət sifarişlərini həyata keçirirlər. Kasıb ölkələr Qərbin bu siyasətinin qurbanı olmamaq üçün təhsilə və elmə ayırdığı pulu artırmalıdırlar.

*Yeganə BAYRAMOVA*

# Bakcell “İnklüzivlikdə İnnovativ Həllər” tədbirinə dəstək oldu

İnnovasiya lideri Bakcell “Birgə və Sağlam” İctimai Birliyi tərəfindən təsis edilən “Kaşalata” kafede “İnklüzivlikdə İnnovativ Həllər” adlı tədbir təşkil edib. Tədbirin əsas məqsədi rəqəmsallaşan dünyada neyro-müxtəlifliyi olan şəxslər üçün inklüziv yanaşmaların inkişafını təşviq etmək, bu sahədə mövcud innovativ həll modellərini müzakirə etmək olub. Tədbirdə dövlət, özəl şirkət, həmçinin QHT və media nümayəndələri də daxil olmaqla ümumilikdə 40-a yaxın qonaq iştirak edib.

Tədbir çərçivəsində inklüziv cəmiyyətin qurulmasında tətbiq edilən ən son yeniliklər, bu sahədə məşğulluq və təhsil imkanlarının genişləndirilməsi, həmçinin sosial sahibkarlıq modellərinin tətbiqi ətrafında geniş müzakirələr aparılıb. “Birgə və Sağlam” İctimai Birliyinin təsisçisi və sədri Aytən Eynalovanın moderatorluğu ilə keçirilən müzakirədə millət vəkili Fariz İsmayılzadə, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Sadiq Əliyev, Mərkəzi Bankın Maliyyə Texnologiyaları və İnnovasiyalar Departamentinin direktoru Fidan Tofidi və Bakcell-in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova çıxış ediblər.

“Bakcell olaraq innovasiya yanaşmamızın əsasında cəmiyyətin hər bir üzvü üçün müasir imkanlar yaratmaq dayanır. “Birgə və Sağlam” ilə güclü əməkdaşlığımız inklüziv cəmiyyətin formalaşdırılması istiqamətində davamlı dəstəyin göstəricisidir və biz bu kimi təşəbbüsləri gələcəkdə artırmağı hədəfləyirik”, - deyə Bakcell-in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova bildirib.

Bakcell inklüziv cəmiyyətin qurulmasına dəstək strategiyası çərçivəsində neyro-müxtəlifliyi olan şəxslərin inkişafını, bərabər imkanların yaradılmasını və inklüziv yanaşmaların genişləndirilməsini hədəfləyən layihələri davamlı şəkildə həyata keçirir. Şirkət yeni texnoloji və sosial təşəbbüslər vasitəsilə cəmiyyətin dayanıqlı inkişafına töhfə verir.

“Birgə və Sağlam” İctimai Birliyi neyro-müxtəlifliyi olan şəxslərin və onların ailələrinin sosial rifahını dəstəkləyir, autizmli şəxslərin cəmiyyətə inteqrasiyası, inklüziv təhsil və məşğulluq imkanlarının artırılmasına yönəlmiş layihələr həyata keçirir. “Birgə və Sağlam” İctimai Birliyinin təşəbbüsü ilə təsis edilmiş “Kaşalata” kafe neyro-müxtəlifliyi olan gənclərin məşğulluğunu dəstəkləyən mühüm bir sosial layihədir.




**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4826**
**Sifariş: 2556**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova